www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 mart 2018-ci il Çərşənbə № 53 (6942) Qiyməti 60 qəpik

**Xəbər**

## Evlənmək istəyən 12 nəfərdə QİÇS tapılıb

yazısı səh.3-də

**Gündəm**

### Beynəlxalq Bank Rusiyanın şübhələndiyi ən böyük filiallarını bağladı



Rusiyanın Daxili İşlər Nazirliyi Sankt-Peterburq filialını çirkli pulların yuyulmasında günahlandırırdı

yazısı səh.6-da

### Zakir Həsənov ön cəbhədə

yazısı səh.11-də

### REAL-ın mitinqdən imtina qərarı aranı qatdı

yazısı səh.4-də

### Azərbaycana qarşı olan "5 Ulduz"lar...

yazısı səh.12-də

### ATƏT missiyasının ilk seçki hesabatına reaksiyalar

yazısı səh.4-də

### Əfv Komissiyası müraciətləri araşdırır

yazısı səh.3-də

### Prezidentliyə namizədlər üçün son 5 gün

yazısı səh.9-da

### Nəyi, hara və neçəyə satırıq?

yazısı səh.3-də

### Türkiyə və ABŞ arasında iplər daha da gərildi

yazısı səh.12-də

### Parlament borcların silinməsi ilə bağlı qanun layihəsini qəbul etdi

yazısı səh.5-də

### Qoz-fındıq ləpəsindən gələn təhlükə

yazısı səh.13-də

## İrəvanın "iki stul"da oturmaq siyasəti dəngəni dəyişir

# QARABAĞLA BAĞLI 3 SSENARİ - RUSİYA "VALI" ÇEVİRİR

Ermənistanda prezident dəyişikliyinə şimaldan ilginc reaksiyalar; **rusiyalı tanınmış politoloq:** "Ermənilər növbəti dəfə Rusiyanı satdılar, nəticəsi o olacaq ki..."



yazısı səh.8-də

## Narkoloji Mərkəz yanğınında sensasion həbs: bir alışqan 25 nəfəri necə məhv edib...

Sübut olunsa ki, təqsirləndirilən Məhəmməd Məmmədovun psixi problemi var, o zaman cinayət məsuliyyətindən azad oluna və qapalı şəraitdə müalicəyə göndərilə bilər; qısaqapanma versiyası niyə təkzib olundu?

yazısı səh.7-də



### Siyavuş Novruzov radikal gənclərlə bağlı təkzib verdi

yazısı səh.9-da



### Artur Rasi-zadə üçün bəlkə də sonuncu hesabat hazırlığı

yazısı səh.6-da



### Mirşahinin yeni televiziyasında "köhnə" komanda

yazısı səh.10-da

# Birinci vitse prezident Mehriban Əliyeva uşaq evlərinin açılışında

**Martın 6-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsində 9 saylı sanatoriya tipli körpələr evi-uşaq bağçası üçün inşa edilən yeni binanın açılışı olub.**

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva açılışda iştirak edib.

Birinci vitse-prezident Mehriban Əliyeva yeni binanın rəmzi açılışını bildirən lenti kəsib, körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə tanış olub.

Bundan başqa, Mehriban Əliyeva Bakının Nərimanov rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı yenidən qurulan 80 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.







## SOCAR hər qadın işçiyə 100 manat mükafat ayırdı

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətində (SOCAR) çalışan işçilərin maaşları 10 faiz artırılıb. Bu barədə şirkətin sosial şəbəkədəki rəsmi səhifəsində məlumat verilib.**

Məlumatda həmçinin qeyd olunur ki, şirkətdə çalışan qadın əməkdaşlara da 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə 100 manat məbləğində mükafat təyin olunub.

"Bu bayram 51.000-ə yaxın SOCAR əməkdaşı üçün ikiqat, 8500-ə yaxın qadın əməkdaşımız üçün isə üçqat sevinc gətirəcək. Belə ki, 1 mart 2018-ci il tarixindən etibarən, SOCAR strukturlarında əmək müqaviləsi ilə çalışan bütün işçilərin aylıq vəzifə maaşları 10% artırıldı.

Üstəlik, 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə qadın işçilərimizə 100 AZN məbləğində mükafat təyin olunub".

Xatırladaq ki, prezident İlham Əliyev bir neçə gün öncə sosial müavinətlərin və dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında sərəncam imzalayıb.

Həmçinin prezident İlham Əliyev bir neçə gün öncə sosial müavinətlərin, pensiyaçıların və dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının 10 faiz artırılması haqqında sərəncamlar imzalayıb.

## Mövlud Çavuşoğlu Rusiyaya və ABŞ-a səfər edəcək

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu martın 12-də Rusiyaya üç günlük rəsmi səfər edəcək. "Reuters" xəbər verir ki, bunu Türkiyə Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Hami Aksoy mətbuat konfransında bildirib.**

"Türkiyə Rusiya ilə münasibətlərə böyük əhəmiyyət verir. Bizim xarici işlər naziri martın 12-14-də Moskvaya rəsmi səfər edəcək. Səfər zamanı iki ölkə arasında yüksək səviyyədə əməkdaşlıq şurasının iclasına hazırlıq müzakirə olunacaq", - o vurğulayıb.

H.Aksoy həmçinin Mövlud Çavuşoğlunun martın 14-də ABŞ-a rəsmi səfər edəcəyini də söyləyib: "Türkiyə XİN başçısı martın 18-də ABŞ dövlət katibi Reks Tillersonla görüşəcək".

Sözçü deyib ki, martın 8-9-da Türkiyə və ABŞ nümayəndələri arasında ştatların Suriyada terrorçu PKK/YPG-PYD-yə silah-sursat və hərbi texnika verməsi məsələsi müzakirə ediləcək.

## Cənubi və Şimali Koreya liderləri görüşəcək

**Koreya Respublikasının prezidenti Mun Çje İn ilə Koreya Xalq Demokratik Respublikasının lideri Kim Çen İn aprelin sonunda görüşəcək. Xarici KİV-in yazdığına görə, bunu Cənubi Koreya Prezident Administrasiyasından bildiriblər.**

Məlumata görə, iki ölkənin liderləri arasında telefon danışığı olub və onlar görüşmək barədə razılığa gəliblər. Mun Çje İn və Kim Çen In arasında danışıqları davam etdirməklə bağlı razılıq da əldə olunub.

Cənubi Koreyanın nümayəndə heyəti bu həftə ABŞ-a səfər edəcək və Şimali Koreya ilə aparılan danışıqlar barədə Ağ Evi məlumatlandıracaq.

Qeyd edək ki, fevralda Koreya Xalq Demokratik Respublikasının lideri Kim Çen In Cənubi Koreyanın prezidenti Mun Çje İni Şimali Koreyaya dəvət edib. Cənubi Koreya prezidentinə "qısa zamanda" dəvətlə bağlı məktubu KXDR liderinin bacısı Kim Ye Çjon təqdim edib.

Cənubi Koreyada keçirilən Qış Olimpiya Oyunlarının açılış mərasiminə Şimali Koreyanın da nümayəndə heyəti qatılıb. Onların arasında Koreya Əmək Partiyası Siyasi Bürosunun üzvü, Kim Çen Inın 26 yaşlı bacısı da olub. Fevralın 9-da Şimali Koreyadan olan nümayəndə heyəti Cənubi Koreyanın prezident sarayında olub, Mun Çje İn onların şərəfinə ziyafət verib.("Report")

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**



## Apteklərə narkotik tərkibli dərman satanlara hökm oxundu

**Bakı Ağır Cinayətlər Məhkəməsində psixotrop maddələrin qanunsuz dövriyyəsində ittiham olunan Şahin Qurbanov və Cavidan Hüseynovun cinayət işi üzrə məhkəmə istintaqı başa çatıb.**

Musavat. com-un xəbərərinə görə, hakim Samir Əliyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən, Ş.Qurbanov 2 il 3 ay müddətinə azadlıqdan məhrum edilib. Onun barəsindəki ev dustaqlığı qətimkan tədbiri dəyişdirilib və məhkəmə zalında həbs olunub. C.Hüseynov isə 1000 manat məbləğində cərimə edilib.

Qeyd edək ki, onlar Azərbaycana qaçaqmalçılıq yolu ilə külli miqdarda psixotrop tərkibli dərman preparatlarını keçirməkdə ittiham ediliblər.

Daxili İşlər Nazirliyinin məlumatına görə, Baş Mütəşəkkil Cinayətkarlığa Mübarizə İdarəsinə Gürcüstan Respublikasından qaçaqmalçılıq yolu ilə Azərbaycana psixotrop tərkibli dərman preparatlarını keçirən mütəşəkkil cinayətkar dəstə barədə əməliyyat məlumatı daxil olub.

Baş İdarə əməkdaşlarının həyata keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində həmin dəstənin üzvləri Cavidan Hüseynov və Füzuli rayon sakini Şahin Qurbanov saxlanılıb.

Saxlanılan şəxslərin üzərlərindən, həmçinin yaşadıqları evlərdən külli miqdarda güclü psixotrop təsirə malik olan "Rivotril", "Ksanaks", "Tramadol", "Relanium", "Lyrica" və satışı qadağan olunan digər adlarda dərman preparatları aşkar olunaraq götürülüb. Onlar həmin malları apteklərə satırmış.



## Həccə getmək istəyən 480 nəfər sənəd verib

**Bu il Azərbaycandan Həcc ziyarətinə getmək istəyən 480 nəfər Qafqaz Müsəlmanları İdarəsinə (QMİ) sənəd verib. Bunu "Report"a açıqlamasında QMİ-nin məsul nümayəndəsi, Azərbaycanın Həcc missiyasının üzvü Həmdulla Babayev bildirib.**

O, sənəd qəbulunun davam etdiyini deyib. QMİ nümayəndəsi həmçinin əlavə edib ki, bu il sağlamlıq haqqında arayışa daha çox önəm veriləcək: "Həcc ziyarətinə sağlamlıq durumu normal olan insanların getməsi məsləhətdir. Sənədləri imkan daxilində ziyarətə gedən vətəndaş özü təqdim etsin. Hətta onlar QMİ-nin din xadimlərindən bəzi məsələləri soruşub, öyrənə bilərlər. Bu il vətəndaşlarımız təcrübəli həkimlər, ilahiyyatçı alimlər, eləcə də bələdçilərlə təmin olunub".

Xatırladaq ki, QMİ-nin Həcc şöbəsi hər gün səhər saat 09.00-dan axşam saat 18.00-dək fasiləsiz işləyir.

Qeyd edək ki, bu il Həcc ziyarəti üçün qiymət 4150 dollar müəyyən edilib. Həcc ziyarəti üçün Azərbaycana 1200 kvota ayrılıb. Əgər müraciət edənlərin sayı çox olsa, kvota sayı 2000-ə qədər artırıla bilər.

## Türkiyədə 65 dənizçi zabitə ömürlük həbs cəzası verildi

**Türkiyə məhkəməsi dövlət çevrilişinə cəhddə ittiham olunan Hərbi Dəniz Qüvvələrinin 65 sabiq zabitini ömürlük həbs cəzasına məhkum edib. Virtualaz.org "Anadolu"ya istinadən bildirir ki, 18 zabitə adi ömürlük həbs cəzası, 47 zabitə isə daha ağır saxlanma şəraiti olan ömürlük həbs cəzası verilib.**

Fevral ayında Türkiyə məhkəməsi dövlət çevriliş cəhdində iştirak ittihamı ilə Quru Qoşunlarının hərbi məktəbinin 64 müəllimini və müdavimini də ömürlük həbs cəzasına məhkum etmişdi.

Xatırladaq ki, 2016-cı il iyulun 16-na keçən gecə bir qrup hərbçi Türkiyədə dövlət çevrilişinə cəhd göstərmişdi. Əsas qarşıdurmalar Ankarada və İstanbulda baş vermişdi. Qiyam nəticəsində 240-dan çox Türkiyə vətəndaşı həlak olmuş, 2 mindən çox insan isə yaralanmışdı.

## Axtarışda olan Rusiya vətəndaşı Azərbaycandan Gürcüstana keçmək istəyərkən tutuldu

**Dövlət Sərhəd Xidmətinin (DSX) əməkdaşları tərəfindən cinayət törətdiklərinə görə axtarışda olan şəxslərin aşkarlanması istiqamətində uğurlu tədbirlər davam etdirilir.**

Virtualaz.org DSX-nin mətbuat mərkəzinə istinadən bildirir ki, 2018-ci ilin 5 mart tarixində "Şıxlı" dövlət sərhədindən buraxılış məntəqəsində Azərbaycan Respublikasından Gürcüstana keçərkən, 2017-ci ildə ölüm hadisəsi törətməkdə şübhəli bilindiyinə görə barəsində axtarış elan olunmuş, 11.11.1983-cü il təvəllüdlü, Rusiya vətəndaşı Mamedov İntiqam Novruz oğlu Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən saxlanılaraq, DİN Tovuz Rayon Polis Şöbəsinə təhvil verilib.





## Tovuzdakı qətllə bağlı şübhəlilər dindirilir

**Tovuz rayonunda törədilən qətl hadisəsi ilə bağlı yeni xəbər var.**

Musavat.com-un əldə etdiyi məlumata görə, fevral ayının 24-də rayonun Mərdan Musayev küçəsində yerləşən evdə meyitləri tapılan ər-arvad Fərman Məmmədovun və Pakizə Mirzəyevanın qətlində şübhəli bilinən bir neçə nəfərin ifadəsi alınıb. Yerli mənbələrin saytımıza bildirdiyinə görə, qətl olayında şübhəli bilinənlər arasında Ruhiyə adlı gənc qadın da var. Qadının Fərman Məmmədovun yaxın qohumu olduğu deyilir. Şübhəli şəxs kimi saxlanılan digər iki şəxsdən birinin Fərman Məmmədovun oğlunun dostu olduğu, digərinin isə "Krokodil" ləqəbli xalça alverçisi olduğu deyilir. Başqa bir şübhəlinin isə Şəmkir rayon sakini olduğu bildirilir.

Baş Prokurorluğun mətbuat xidmətindən musavat.com-a bildirilib ki, bu haqda istintaqda heç bir məlumat yoxdur.

Xatırladaq ki, Pakizə Mirzəyeva AFFA-nın sabiq prezidenti mərhum Ramiz Mirzəyevin bacısıdır.

❑ **Elşən MƏMMƏDƏLİYEV, Musavat.com**

## Dünyanın ən zənginlərinin adları

**"Forbes" jurnalı planetin ən varlı insanlarının adlarını açıqlayıb.**

Modern.az xarici KİV-ə isitnadən xəbər verir ki, "Amazon" şirkətinin sahibi Cef Bezosun şəxsi sərvəti 112 milyard dollar təşkil edib.

"Bezosun uğuru "Amazon" şirkətinin səhmlərinin 60% bahalaşması ilə bağlıdır"-deyə jurnal yazıb.

İkinci pillədə "Microsoft" şirkətinin yaradıcısı Bill Geyts (90 milyard dollar), üçüncü pillədə isə amerikalı investor Uorren Baffet (84 milyard dollar) yer alıb.

## Rusiya təyyarəsi Suriyada qəzaya uğradı: 32 ölü

**Rusiyaya məxsus An-26 nəqliyyat təyyarəsi Suriyanın Hmeymim hərbi bazasına eniş edən zaman qəzaya uğrayıb.**

Modern.az Rusiya KİV-nə isitnadən xəbər verir ki, hadisə uçuş zolağına 500 metr qalmış baş verib. 26 sərnişin və 6 heyət üzvü həlak olub.

Ölənlərin hərbçilər olduğu bildirilir.

# Əfv Komissiyası müraciətləri araşdırır

## Hüquq müdafiəçiləri sərəncamın Novruz bayramında imzalanmasını arzu edir, amma…

**Novruz bayramında əfv sərəncamının imzalanıb-imzalanmayacağı ilə bağlı müzakirələr səngimir. Ötən həftə belə bir xəbər yayıldı ki, əfv martda yox, mayda olacaq. Çünki Əfv Komissiyası hələ müraciətləri araşdırıb yekunlaşdırmayıb. Lakin əfvin prezidentin müstəsna səlahiyyəti olduğunu əsas gətirərək, Novruzda bu addımın atıla biləcəyini iddia edənlər də var.**



**Əfv Komissiyasının üzvü Əlimməmməd Nuriyev** əfvlə bağlı müzakirələrə dair "Yeni Müsavat"a açıqlama verib. O deyib ki, əfv sərəncamının verilib-verilməməsi prezidentimizdən asılıdır: "Bunun üçün sənədlərin tam hazır olması da vacib prosedurlardan biridir. Bildiyiniz kimi, hazırda Əfv Komissiyasında müraciətlərə baxılma davam edir. Bunun nə vaxt bitəcəyi məlum deyil. Sənədlər nizamlanmalı və cənab prezidentə təqdim edilməlidir. Ondan sonra qərar qəbul ediləcək. Qısa müddətin qaldığını düşünərək, sərəncamın mayda veriləcəyini də söyləmək mümkündür. Bunu istisna etmirəm, yəni Novruz bayramında deyil, Cümhuriyyətin yüz illik yubileyi ərəfəsində sərəncam verilə bilər. Amma istənilən halda sərəncamın verilməsinin cənab prezidentin müstəsna konstitusion hüququnun olduğunu unutmaq olmaz. Sərəncamın verilmə müddəti ölkə başçısı tərəfindən müəyyən edilir. Müraciətlərə baxılma mərhələsi ola bilsin ki, Novruza qədər çatdırılmasın. Müddətin çox qısa olduğu məlumdur. Bilirsiniz ki, mart-aprel aylarında prezident seçkiləri ilə bağlı böyük tədbirlər keçiriləcək, seçki kampaniyası da bayram ərəfəsində başlayacaq. Əfv Komissiyasının üzvlərinin bir çoxu digər fəaliyyətlə də məşğuldur. Onlar mühüm əhəmiyyəti olan qurumlarda təmsil olunurlar. Bu baxımdan iclasların sürətli, tez-tez keçirilməsi ilə bağlı məsələdə vaxt problemi ola bilər. Buna görə istisna etmirəm ki, əfv mayda verilə bilər. İstənilən halda əfvin verilib-verilməməsi ilə bağlı konkret fikir səsləndirmək mümkün deyil. Uzun illərin təcrübəsinə baxsaq görərik ki, əfv sərəncamları müraciətlərə tam baxılıb, rəylər təqdim edildikdən sonra verilir. İki hissəli əfv sərəncamı olmur. Bu praktika dəyişəcək ya yox, deyə bilmərəm".

**Hüquq müdafiəçisi Səadət Bənəniyarlı da tərəddüdlü danışdı:** "Biz istərdik ki, Əfv Komissiyası müraciətlərin həmısına baxsın. Əgər çatdırsalar, yəqin ki, cənab prezidentə siyahı təqdim olunacaq. Amma hələ ki dəqiq bir məlumat yoxdur. İntensiv şəkildə çalışdıqlarını deyə bilərik. Nə qədər tez rəy hazırlasalar, tez də ölkə başçısına təqdim olunacaq. Amma bu il mütləq əfvin olacağını əminliklə söyləmək mümkündür. Novruzdan sonra xalqımız və dövlətimiz üçün əhəmiyyətli olan tarixi günlər gəlir. Ona görə sərəncamın verilməsi gündəmdədir".

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**

# Nəyi, hara və neçəyə satırıq?

## Rəşad Həsənov: "İstehsal ixracı dəstəkləmir"

**Bu ilin yanvarında Azərbaycandan qeyri-neft sektoru üzrə ixrac 33 faiz artıb. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın 2018-ci ilin fevral sayında qeyd olunur.**




Dövlət Statistika Komitəsinin məlumatına əsasən ilin ilk ayı ərzində ən çox qeyri-neft məhsulları Rusiya Federasiyasına ixrac edilib - 36.8 milyon ABŞ dolları. İkinci yerdə olan Türkiyəyə 23 milyon, İsveçrəyə 17,9 milyon, Gürcüstana 11.3 milyon və Çinə 4.4 milyon ABŞ dolları dəyərində qeyri-neft məhsulları ixrac olunub.

Yanvar ayında ən çox qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda) (17 milyon ABŞ dolları), xurma (13 milyon ABŞ dolları), xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen (9.7 milyon ABŞ dolları) satılıb.

Qeyd edək ki, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar ayında elektrik enerjisinin ixracı 86 faiz, meyvə-tərəvəzin ixracı 45 faiz, kimya sənayesi məhsullarının ixracı 36 faiz, pambıq ixracı 20 faiz artıb. Ümumiyyətlə isə yanvar ayı ərzində meyvə-tərəvəz ixracı 35 milyon, plastmass və onlardan hazırlanan məmulatların ixracı 10 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 9 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 5 milyon, kimya sənayesi məhsullarının ixracı 3.6 milyon milyon ABŞ dolları təşkil edib.

**İqtisadçı-ekspert Rəşad Həsənovun bildirdiyinə görə, ötən ilin nəticələrinə baxsaq, qeyri-neft idxalı 8 milyard, qeyri-neft ixracı isə 1,4 milyard dolları ətrafındadır:** "Yəni əgər enerji resursları olmasa, sadəcə, qeyri-neft xarici ticarət saldosu 6,5 milyard dollar ətrafında olur. Bu isə Azərbaycan iqtisadiyyatı üçün kifayət qədər yüksək risklər formalaşdırır. Məhz bu kimi problemlərin aradan qaldırılması məqsədilə Azərbaycanda ixracın təşviqi, subsidiyalaşdırılması mexanizmləri tətbiq olunur, vahid ixrac pəncərəsi yaradılır. İndi əldə olunan nəticələri bu baxımdan müsbət hesab etmək olar. 30 faizlik artım istənilən halda pozitiv tendensiyadır Amma problem ondadır ki, ötən il Azərbaycanın qeyri-neft ixracında 22 faizlik artım baş verdi. Valyuta ifadəsində bu, cəmi 200 milyon dollar deməkdir, yəni kiçik rəqəmdir. Qeyri-neft ixracatının bazasının kiçik olması bu gün bizim yüksək faizlərlə artım fikrini səsləndirmək üçün zəmin yaradır".

**Ekspert deyir ki, yanvarda ümumi ixracın 29 faizi kənd təsərrüfatı məhsullarının payına düşüb ki, bu da müsbət amildir:** "Lakin ixracatda ən yüksək paya malik olan sahə yenə də mədən sənayesinin məhsulu olan qızıldır. Yəni qeyri-mədən sənayesi məhsulları hələ ki ixracatda elə də yüksək yer tutmur. Məsələn, istehsal və ixrac potensialı yüksək olan kimya sənayesi məhsullarının ixracı ümumi ixracatda əhəmiyyətli yer tuta bilmir. Elektrik enerjisinin ixracı 86 faiz artıb, amma bu halda belə ixrac olunan enerjinin dəyəri cəmi 2,6 milyon dollar təşkil edir".

**R.Həsənova görə, qeyri-neft ixracının hazırkı səviyyəsini qənaətbəxş hesab etmək olmaz:** "Hazırda Azərbaycanda adambaşına düşən qeyri-neft ixracı 150 dollar təşkil edir. Strateji yol xəritələrində 2025-ci ilədək bunun adambaşına 450 dollara çatdırılması nəzərdə tutulur. Düşünmürəm ki, hazırkı şərtlər daxilində biz bu göstəriciyə nail ola bilək. Çünki doğrudur, ixracı təşviq mexanizmləri hazırlanıb, tətbiq olunur. Lakin əsas görüləcək işlərdən biri ixrac qabiliyyətili məhsulun istehsalıdır. Belə məhsul istehsal olunmursa, ixracı necə artırmaq olar? Hazırda ixracın 30 faizi kənd təsərrüfatı məhsullarıdır. Bəli, bizdə intensiv olmayan kənd təsərrüfatı istehsalıdır, buna görə də məhsullarımız təbiidir, daha çox orqanikdir. Buna baxmayaraq, ixrac coğrafiyamız çox məhduddur, əsas diqqətlər bir istiqamətə - Rusiya bazarlarına yönəlib. Bu bazarlarda hər hansı risk yaranarsa, alternativ bazarımız belə yoxdur. Digər tərəfdən, beynəlxalq qiymətləndirmədə ixracında kənd təsərrüfatının payı çox olan ölkələr iqtisadiyyatı və ixracatı zəif şaxələnmiş hesab olunur. Son məhsulun ixracında ixtisaslaşan ölkələrin iqtisadiyyatı daha şaxələnmiş sayılır".

**Ekspertin sözlərinə görə, ixracın artdığı səviyyədə istehsalın da artmaması ölkədə kənd təsərrüfatı məhsullarının qiymətinin bahalaşmasına gətirib çıxarır:** "Bir tərəfdən, kənd təsərrüfatı məhsullarının ixracı artır, difər tərəfdən, həmin məhsulların idxalı da artır. Yəni mövcud istrehsal ixracı dəstəkləmir. Buna görə də kənd təsərrüfatı məhsullarının istehsalını da artırmağa ciddi ehtiyac var".

❑ **Dünya SAKİT,
"Yeni Müsavat"**

# Jurnalistlərin binasından "ev satan" baş redaktor 1 il harada gizlənib?

**Dələduzluqda və rüşvət verməkdə ittiham olunan "Zaman Press" qəzetinin baş redaktoru Gündüz Hüseynov hakim qarşısına çıxarılıb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində G.Hüseynovun cinayət işi üzrə məhkəmə iclasına hakim Eldar İsmayılov sədrlik edib. Məhkəmədə şahidlərin gəlmədiyi məlum olub. Hakim həmin şəxslər barəsində məcburi gətirilmə qərarı çıxarıldığını elan edib.

Əldə etdiyimiz məlumata görə, Gündüz Hüseynov 1 il axtarışda olub. Onun barəsində şikayətlər başlayan zaman Moskvaya gedib. Daha sonra isə Azərbaycana qayıdıb və Lənkəranda ucqar kəndlərdən birində gizlənib. Polis əməkdaşlarının keçirdikləri əməliyyat zamanı G.Hüseynov saxlanılıb.

İttihama görə, Gündüz Hüseynov öz işçilərinə qarşı dələduzluq edib. O, 200 min manatdan artıq pulu dələduzluqla almaqda ittiham olunur.

Gündüz Hüseynov Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda dələduzluq törətmək), 32.4, 312.2-ci (iştirakçılıq, rüşvət vermə, vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə ona rüşvət vermə və ya təkrar rüşvət vermə) maddələri ilə ittiham edilir.

Bildirək ki, "Zaman Press" qəzeti Mətbuat Şurasının reket qəzetlər siyahısına salınıb. Gündüz Hüseynov ayrı-ayrı şəxslərə qəzetin vəsiqəsini verib. Həmin şəxslərə jurnalistlər üçün tikilən binadan ev almasına kömək edəcəyini deyib.

❑ **İ.Muradov,
Musavat.com**

# Ötən ay evlənmək istəyən 12 nəfərdə QİÇS tapılıb

Bu ilin fevral ayında nikaha daxil olmaq istəyən 10125 nəfər tibbi müayinədən keçib.

Səhiyyə Nazirliyinin B. Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun direktoru Zöhrə Əlimirzəyeva APA-ya deyib ki, ötən ay müayinədən keçən şəxslərin 17 nəfərində sifilis, 12 nəfərdə isə QİÇS aşkarlanıb.

# Cəlilabadda 21 yaşlı oğlanın qətlinin şok təfərrüatları

**Cəlilabad rayonunda törədilmiş qətl hadisəsi ilə bağlı bəzi məqamlar üzə çıxıb. Lent.az xəbər verir ki, ilkin araşdırmalardan sonra Musalı kənd sakini, 21 yaşlı Nəsirov Sirus İlham oğlunun həmkəndlisi, 33 yaşlı Seymur Məmmədov tərəfindən qısqanclıq zəminində öldürüldüyü məlum olub.**

Bildirilir ki, martın 2-də S.Məmmədov Sirusun onun həyat yoldaşına yazdığı mesajları gördükdən sonra onu küt alətlə döyərək öldürüb. Daha sonra Seymur öldürdüyü gəncin meyitini kənddən kənarda qoyaraq qaçıb. Meyiti ərazidəki çobanlar aşkarlayıb.

Qətlə yetirilən gəncin yaxınları bildiriblər ki, Sirus nişanlı olub. Onun gələcək xanımı qonşu kənddə yaşayır və mobil telefonu yoxdur. Bu səbəbdən gənc sevgililər Seymurun həyat yoldaşının telefonu vasitəsilə əlaqə saxlayırmış.

Sirusun yaxınları iddia ediblər ki, Seymur Məmmədov Sirusu döyəndən sonra onu ata bağlayaraq xeyli sürüyüb.

Faktla bağlı Cəlilabad Rayon Prokurorluğunda cinayət işi açılıb, araşdırmalar davam etdirilir. Polis tərəfindən tutulan S.Məmmədov qətli qısqanclıq zəminində törətdiyini etiraf edib.

# REAL-ın mitinqdən imtina qərarı aranı qatdı

## Natiq Cəfərli: “Bizi təhqir edənlər bir müddət sonra bir-birilərini təhqir edəcəklər”

**REAL hərəkatı Milli Şura (MŞ) sədri Cəmil Həsənlinin birgə mitinq keçirməklə bağlı müraciətinə “yox” deyib. Amma bununla belə, hərəkat üzvlərinə aksiyada iştirak etməkdə sərbəstlik verib. Bu isə o anlama gəlir ki, martın 10-da keçirilməsi planlaşdırılan mitinq Müsavat Partiyası və Milli Şura tərəfindən təşkil olunacaq.**

REAL-ın mitinqin təşkilatçısı olmaqdan imtina etməsi sosial şəbəkələrdə müzakirələrə səbəb olub. REAL-ın qərarı tənqid edilir, hərəkatın ünvanına sərt ittihamlar, iddialar səslənir. Əsas iddialar isə həbsdə olan REAL sədri İlqar Məmmədov üzərində cəmləşib. Belə ki, imtina qərarının onun azadlığa çıxması üçün verildiyi bildirilir.

**REAL-ın icraçı katibi Natiq Cəfərli** hərəkatın idarə heyətinin iclasında ciddi müzakirələrdən sonra bu qərarın qəbul olunduğunu bildirdi: “Qərar İlqar Məmmədovla razılaşdırılıb. Qərarın nədən verildiyi barədə facebook səhifəmdə paylaşdığım 10 bəndlik yazım da var. Hər bir siyasi partiya üçün mitinq keçirmək onun təbii haqqıdır. Amma birgə aksiyaların təşkil olunmasından öncə ciddi müzakirələr aparılmalı, taktiki və strateji addımlar hesablanmalıdır, eyni zamanda şüarlar, insanlara veriləcək ümidlər, hədəflər əvvəlcədən müzakirələr əsasında müəyyən edilməlidir. Çox təəssüf ki, biz mitinqə yalnız dəvət aldıq. Sanki qərar verilmişdi, sadəcə, iştirakımız barədə müraciət oldu. Bizim hərəkat olaraq, əvvəlcədən müəyyən edilmədən belə tədbirlərdə iştirakımız heç zaman olmayıb”.



**N.Cəfərli mitinqlərin nəticələrinin olacağına inanmır:** “Hətta mitinqin təşkilatçılarının özlərində belə ciddi nəticələr əldə olunacağı haqda ümid yoxdur. Bu, biz tərəfdən qeyri-səmimilik olardı. Bunu mitinqin təşkilatçılarına demirəm, onların səmimiyyətlərinə şübhəm yoxdur. Sadəcə, onların hesablaşmaları yanlış ola bilər. İnsanları nəticəsi olmayan prosesə cəlb etmək doğru yanaşma deyil. İndiki halda cəmiyyətdə belə bir sosial sifarişin olduğunu da müşahidə etmirik. Həm də bu mitinqlər hakimiyyətə ciddi arqumentlər verəcək. Çünki martın 10-dan sonra ölkəyə Avropa institutlarından bir neçə missiyanın gələcəyi gözlənilir. Həmin missiyalara hökumət tərəfindən ölkədə sərbəst toplaşma hüququnun olduğu tezisini sərbəst şəkildə ifadə etməyə şərait yaradılacaq. Əslində bir çox məsələləri müzakirə edib, sonra mitinqə icazə verilməli idi. Bunun mənfi və müsbət tərəfləri mütləq araşdırılmalı idi. Amma bunlar bizimlə müzakirə edilmədi. REAL-ın tərəfdarlarının sayının az olması barədə deyilənlərə gəldikdə isə sayımız azdırsa, niyə dəvət edirdilər? Digər tərəfdən, bizim mitinqdə iştirak qərarımız olsaydı belə, normativ, götürmək fikrimiz yox idi. Bu pambıq yığını deyil. Sistemdən kənar düşüncəyə sahib olmaq lazımdır ki, sistemə qalib gələ biləsən. Bu da əslində sistemin oyun qaydalarına uymaq deməkdir. Son 20 ildə müxalifətdə 12 birlik modeli olub. Bunların heç biri uğurlu nəticələrin qazanılmasına imkan verməyib. Bunları görüb, oturub düşünmək lazımdır. Çox ciddi müzakirələr tələb edən məsələlərdir. Dəvətə görə təşəkkür edirik. Əgər REAL hərəkatının bu mitinqi daha kütləvi edəcəyinə inamdan müraciət irəli gəlirdisə, çox yaxşı. Amma iddia etmələri ki, REAL tərəfdarları yoxdur, o zaman nə üçün dəvət göndərildiyini düşünsünlər. Bizim mitinqdə təşkilatçılıqdan imtina etməyimiz nə üçün bu qədər müzakirə mövzusu olmalıdır? Bunlar çox ciddi suallardır. İttiham səsləndirənlərin özləri bu suallara cavab versələr daha yaxşı olardı. Bütün proseslərlə bağlı İlqar Məmmədov xəbərdar olunur. REAL yarandığı gündən bu günə qədər öz prinsipləri və dəyərləri ilə hərəkət edir. REAL bir və ya bir neçə şəxsin təşkilatı deyil. Bir faktı da deyim ki, martın 5-də elan olunan qərarımız bir neçə gün öncə qəbul olunub. Sadəcə, İlqar Məmmədovla hər gün əlaqə qura bilmirik deyə, martın 5-də cavab ala bildik və qısa müddətdə də yaydıq. Belə mitinqlərin hakimiyyətə necə bir ciddi arqumentlər verəcəyi göz önündədir. Biz beynəlxalq qurumlarla bütün görüşlərimizdə deyirik ki, ölkədə sərbəst toplaşmaq hüququ pozulub. Amma indi boykota gedən qüvvələrə şəhərin mərkəzində, metro stansiyasının yaxınlığında yer verirlərsə, bu, sərbəst toplaşmaq hüququnun hökumət tərəfindən qabardılmasına səbəb olacaq. Bu amillərin qərarımıza təsirləri də az olmadı. 2013-cü ildə də bu tipli məsələlər baş vermişdi. O zaman Milli Şuraya daxil olmaq üçün yeddi dəfə danışıqlar apardıq. Təklif etdiyimiz prinsiplər və qırmızı cizgilər qəbul edilmədi deyə, ideoloji səbəblərə görə o təşkilata qoşulmadıq. O zaman çox ciddi qınaq obyekti olmuşduq, hətta təhqirlərə belə məruz qaldıq. Buna baxmayaraq, seçkilərdən bir neçə ay sonra Müsavatın Milli Şuradan çıxmasından və Milli Şuranın demək olar AXCP-dən ibarət bir quruma çevrilməsindən sonra bizi təhqir edən bir neçə insan bizdən üzr istədi. Sizi inandırıram ki, bu gün bizi təhqir edənlər bir müddət sonra bir-birilərini təhqir edəcəklər”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# ATƏT missiyasının ilk seçki hesabatına reaksiyalar

## Ekspert: “Hesabatdan görünür ki, seçki beynəlxalq aləm tərəfindən qeyri-legitim qiymətləndirilməyəcək”

**ATƏT-in Demokratik Təsisatlar İnsan Haqları Bürosunun qiymətləndirmə missiyası 21-22 fevral Bakı səfərinin yekunlarını açıqlayıb. Səfər 11 aprel prezident seçkiləri ilə bağlı vəziyyətin öyrənilməsi ilə əlaqədar olub. “Turan”ın xəbərinə görə, 12 səhifəlik hesabatda ictimai-siyasi durum, qanunvericiliyin vəziyyəti, onun tətbiqi təhlil edilir. Həmçinin seçki qanunvericiliyinin bu və ya digər müddəalarının tətbiqi, dövlətin müxtəlif məsələlərə dair siyasəti ilə bağlı məlumatlar əksini tapıb. ATƏT DTİHB-nin əvvəlki hesabatları ilə müqayisələr aparılıb.**



Hesabat hakimiyyət nümayəndələri, parlament üzvləri, siyasi partiyalar, vətəndaş cəmiyyəti və mətbuat təmsilçiləri ilə görüşlər və danışıqların əsasında yazılıb. Hesabatın rəy və tövsiyələr bölməsində deyilir ki, missiya həmsöhbətlərinin əksəriyyəti DTİHB-nin qarşıdakı seçkilərlə bağlı monitorinqinin önəmli olduğunu qeyd ediblər. Dövlət müəssisələrinin nümayəndələri bildiriblər ki, seçki prosesi şəffaf və beynəlxalq demokratik seçki standartlarına uyğun keçiriləcək. Onlar ATƏT DTİHB-nin müşahidələrini və seçki prosesinin yaxşılaşdırılmasına dair istənilən potensial tövsiyələrini alqışlayıblar.

Hesabatda DTİHB hesab edir ki, seçki qanunvericiliyinin reallaşması, seçki administrasiyasının effektivliyi və qərəzsizliyi, seçki kampaniyasının keçirilməsi, əsas azadlıqlara əməl olunması, seçkilərin KİV-də işıqlandırılması, səslərin hesablanması da daxil olmaqla, seçki prosedurunun idarə edilməsi kimi məsələlərə xüsusi diqqət yetirmək lazımdır. DTİHB seçkiləri müşahidə etmək üçün missiya göndərilməsini tövsiyə edib. DTİHB əsas ekspertlər qrupuna əlavə olaraq ATƏT ölkələrindən 30 uzunmüddətli və 280 qısamüddətli müşahidəçi istəyəcək. Onlar ölkə boyunca seçki prosesini və seçkilərin özünü müşahidə edəcəklər.

Bəs ATƏT Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun qiymətləndirmə missiyasının açıqladığı ilkin hesabat və seçkiyə müşahidə missiyası göndərilməsi 11 aprel prezident seçkisinə bu qurumun necə qiymət verəcəyi ehtimalını yaradır?

**“Cəbhəçilər” təşəbbüs qrupunun prezidentliyə namizədi Razi Nurullayev “Yeni Müsavat”a bildirdi ki, ATƏT DTİHB seçkiləri hər zaman müşahidə edib və hesabatı da birmənalı olaraq geniş ictimaiyyət tərəfindən qəbul edilib:** “Ümid edirəm ki, onların müşahidəçiliyi normal, azad və şəffaf seçkilərin keçirilməsinə töhfə verəcək. Mən təbii ki, ATƏT-in müşahidə missiyasından yüz faiz Avropa standartlarına cavab verən seçki keçirildi kimi bəyanat da gözləmirəm. Hələ ki bizə qarşı ciddi yadda qalacaq pozuntular olmayıb, İnşallah da namizədliyin qeydə alınmasında da problem olmaz. Təbliğat və təşviqat kampaniyası zamanı ayrı-seçkilik olacaqsa, buna qarşı da barışmaz mövqe ortaya qoyacaq və var gücümüzlə qarşısını almağa çalışacağıq və bu barədə müşahidə missiyası da, hər halda, məlumatlı olacaq”.

**Prezidentliyə namizədliyini irəli sürən AG Partiyanın namizədi Tural Abbaslı isə bildirdi ki, ATƏT DTİHB-nin seçkiyə dair ilkin hesabatı artıq seçkidən sonra verəcəkləri bəyanatın anonsudur:** “Hesabatdan görünür ki, bəzi boykotçuların dediyi kimi, seçki beynəlxalq aləm tərəfindən qeyri-legitim kimi qiymətləndirilməyəcək. Hər zaman olduğu kimi bu seçkilərdə də beynəlxalq təşkilatlar və özlərini demokratiyanın beşiyi sayan dövlətlər seçkilərdə demokratiyanın deyil, şəxsi maraqlarının yanında duracaqlar. Mən əminəm ki, ATƏT başda olmaqla, digər qurumlar bu seçkiləri də ”demokratiyaya doğru növbəti addım" kimi qiymətləndirəcək. Seçkiləri boykot edənlərin daha bir arqumenti, yəni “əgər Azərbaycan müxalifətinin hamısı seçkiyə qatılmazsa, dünya da bu seçkiləri demokratik hesab etməz” arqumenti indidən iflasa uğramış sayıla bilər. Bu hesabatdan da göründüyü kimi, hazırkı real seçki mühitinin ağırlığından, qeyri-bərabər rəqabət şərtlərindən, seçki komissiyalarının tərkibindən və digər neqativ hallardan söz belə açılmır. Hətta geniş tərkibli müşahidəçi missiyası göndərməklə artıq seçkilərin indidən demokratikliyini dolayısıyla təsdiq etmiş olur. Mən, ümumiyyətlə, ölkədə demokratiyanın qurulmasında beynəlxalq aləmə çox da güvənməyin heç zaman tərəfdarı olmamışam. Ölkədəki vəziyyəti dəyişə biləcək bir qüvvə var, o da xalqdır. Biz AG Partiya olaraq beynəlxlaq təşkilatlarla əməkdaşlığa sərf edilən faydasız vaxtın xalqla işləməyə sərf edilməsinin tərəfdarıyıq. Bizim gücünə-qüdrətinə əmin olduğumuz və etimadını qazanmaq istədiyimiz yeganə qüvvə xalqdır".

**Müstəqil ekspert Əvəz Həsənov isə qeyd etdi ki, ATƏT-in, nəhayət, Azərbaycanla bağlı itirdiyi imkanları bərpa etməyə başladığı hiss olunur:** “İndi seçkilərə müşahidəçi missiyasını göndərmələri normal bir haldır. Əvvəla, Azərbaycanda bu seçkilər digər seçkilərə nisbətən sakit keçəcək. Burada kimin fovarit olması və kimlərin debütant olması bəri başdan aydındır. Ona görə də ATƏT Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun seçkini müşahidə etməyə qərar verməsindən başqa yolu qalmır. Bu qurum Azərbaycanı iqnor edə bilmir. Çünki Azərbaycan artıq Avropa İttifaqı ilə münasibətlərin nizamlanmasında lazımi addımları atmağa başlayıb. Seçki ilə bağlı ATƏT DTİHB yekun hesabatının necə olacağını müəyyən etmək hələ tezdir”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 53 (6942) 7 mart 2018

# Parlament borcların silinməsi ilə bağlı qanun layihəsini qəbul etdi

## Milli Məclis "Məcburi dövlət sosial sığorta sahəsində borcların tənzimlənməsi haqqında" qanun layihəsinə "hə" dedi; **deputat:** "Arzu edərdim ki, cənab prezidentin təqdim edəcəyi digər bir sənəd dollar kreditləri ilə bağlı olsun"

**Martın 6-da spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirildi. Gündəlikdə 24 məsələ, o cümlədən Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında", "Dövlət qulluğu haqqında", "Yaşayış minimumu haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Sosial sığorta haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" və digər məsələlər var idi.**



**Deputat Qüdrət Həsənquliyev** iclasda söz alaraq Milli Şuranın 10 mart aksiyası ilə bağlı müraciətinə diqqət çəkdi: "Ölkədə prezident seçkiləri elan olunub. Qanuna görə, təbliğat-təşviqat kampaniyası seçkilərə 20 gün qalmış başlana bilər. Onda Milli Şura adlanan quruma niyə belə hüquq tanınmır? Onlar martın 10-da, Bakı şəhərindəki "Məhsul" stadionunda mitinq keçirmək istəyirlər. Məndə olan məlumatlara görə, Bakı Şəhər İcra Hakimiyyəti bu aksiyanı sanksiyalaşdırıb. Bəs onlara niyə bu imkanı yaradırlar?" **Q.Həsənquliyev daha sonra bunları bildirdi:** "Kimsə düşünə bilər ki, bu aksiya məni narahat edir. Xeyr, kimsə düşünürsə ki, Əli Kərimli kimi xalq hərəkatını və demokratiyanı gözdən salan, iki gün öncə Milli Şura adından bəyanat verərək əxlaqsız söyüş söyənləri "tənqidçi" adlandıran, özü də həmin əxlaqın daşıyıcısı olan bu ünsürün çağırışına savadlı və yetkin insanlar ciddi yanaşacaq, böyük səhvə yol verir. Mən ölkədə sərbəst toplaşma azadlığının təmin olunmasını alqışlayıram. Amma martın 19-dan sonra, seçkilərə 20 gün qalmış təbliğat kampaniyasına imkan verilir ki, qoy o zaman gündə mitinq keçirsinlər və bu seçkinin əleyhinə kampaniya aparsınlar. Amma hazırda Oqtay müəllim, bu, seçki qanunvericiliyinin kobud surətdə pozulmasıdır. Mən də hesab edirəm ki, biz Bakı Şəhər İcra Hakimiyyətindən bununla bağlı izahat tələb etməliyik ki, niyə seçki qanunvericiliyinin bu formada pozulmasına şərait yaradır? Öz çıxışlarında qanunların aliliyini istəyən şəxslər özü qanunun tələblərinə əməl etməlidir".

**Deputat Fazil Mustafa dövlətin maliyyələşdirdiyi televiziyada xurafatın yayılmasına qarşı çıxdı:** "Xaricdə dini təhsillə bağlı qaydaların tənzimlənməsi faydalıdır və dinin siyasətə alətinə çevrilməsinin qarşısı alınmalıdır". Deputat dedi ki, dövlətin büdcəsindən maliyyələşən İctimai Televiziyada təhsilli din adamları təbliğ olunmaqdansa, xurafat təbliğ olunur: "Heç sovet dövründə bu qədər xurafat, mövhumat təbliğ olunmurdu, amma İTV-də belə təbliğat aparılır. Xüsusilə İTV-də belə bir təbliğatın aparılması olduqca zərərlidir. Xaricdə təhsil alanları, elm adamlarını təbliğ etmək əvəzinə, ziyarətgahları, nəzir verməyi təbliğ edirlər. Biz təzədən Molla İbrahimxəlil Kimyagərin yanına qayıdacağıqsa, yeni dövrə adaptasiya ola bilməyəcəyik. Mən bunu kəskin şəkildə qınayıram və hesab edirəm ki, bu sahədə "doza"nı aşağı salmaq olduqca vacibdir".

Spiker deputatın fikirləri ilə razılaşdığını bildirdi. Qeyd etdi ki, növbəti aidiyyəti qanunun müzakirəsi zamanı bu məsələyə qayıtmaq olar.

Milli Məclis bir sıra qanunlara əlavə və dəyişiklikləri təsdiqləyəndən, həmçinin texniki xarakterli düzəlişlər edəndən sonra "Ələt iqtisadi zonası" haqqında qanun layihəsini ikinci oxunuşda müzakirəyə çıxardı.

**Layihə barədə məlumat verən vitse-spiker Valeh Ələsgərov bildirdi ki, sənəd birinci oxunuşda müzakirə edilərkən deputatlar bir sıra təkliflərlə çıxış ediblər:** "Bundan sonra komitənin iclası keçirilib və verilmiş təkliflərin bəziləri qəbul edilib, bir çox maddələrə müəyyən dəyişikliklər olunub. Layihə ikinci oxunuşa yeni dəyişikliklərlə təqdim edilir".

Qanun Azad Zonanın fəaliyyətinin, inkişafının və idarə edilməsinin hüquqi rejimini müəyyən edir. Sənəddə qeyd olunur ki, Azad Zonanı müvafiq icra hakimiyyəti orqanı yaradır və orada azad zona qanunvericiliyi tətbiq edilir. Bu qanunvericiliklə əsas iqtisadi qanunvericilik arasında ziddiyyət yaranarsa, azad zona qanunvericiliyi üstün tutulur. Azad Zonada hüquqi şəxslərin nizamnamə kapitalının və investisiya qoyuluşunun 100%-nin xarici hüquqi və fiziki şəxslərə məxsus olmasına məhdudiyyət qoyulmur. Azad Zona səlahiyyətli qurumu, Azad Zona inzibati müəssisələri, Azad Zona hüquqi şəxsləri və onların işçiləri, Azad Zona rezidentləri azad zonada fəaliyyətlərinə aid olan bütün vergilərdən azaddırlar. Azad Zonaya idxal edilən mallara, işlərə, xidmətlərə görə gömrük rüsumları və vergilər ödənilmir. Mallar, işlər, xidmətlər Azad Zonadan əsas iqtisadiyyata ixrac edildikdə, bu cür ixrac edilmiş mallara, işlərə, xidmətlərə əsas iqtisadiyyat qanunvericiliyinin müddəaları tətbiq edilir. Əsas iqtisadiyyat gömrük idarəsi Azad Zonada gömrük qaydalarının tətbiq edilməsi üçün gömrük idarəsi yaradır. Gömrük idarəsi öz fəaliyyətini Azad Zonanın strateji məqsədlərinə, qabaqcıl beynəlxalq təcrübəyə və Azad Zona qanunvericiliyinə uyğun həyata keçirir. Azad Zonada fəaliyyət göstərmək hüququ əldə etmiş Azad Zona hüquqi şəxslərinə hər hansı milliləşdirmə, müsadirə tədbirləri və ya özəl mülkiyyətə aid hər hansı digər məhdudiyyət tətbiq edilə bilməz. İnvestorlar, səhmdarlar, Azad Zona rezidentləri, Azad Zona hüquqi şəxsləri Azad Zonaya investisiya qoymaq və fəaliyyətlərindən əldə etdikləri pul vəsaitlərini məhdudiyyətsiz xaricə köçürmək hüququna malikdirlər. İnvestorların, səhmdarların, Azad Zona rezidentlərinin, Azad Zona hüquqi şəxslərinin və onların işçilərinin, heç bir məhdudiyyət olmadan, hər hansı xarici valyuta ilə işləməyə və əməliyyatlar aparmağa hüququ var.

## Vitse-spiker Valeh Ələsgərov: "Müzakirələr üçün mənim qapıma gəlmək istəmirsinizsə, mən sizin qapınıza gəlim"

**Deputat Əli Məsimli qanun layihəsi barədə danışarkən birinci oxunuşdan sonra layihəyə edilən dəyişiklikləri müsbət xarakterizə etdi:** "Müzakirə zamanı 3 məqama - layihənin Konstitusiyaya, beynəlxalq qanunvericiliyə və qanun yaradıcılığına uyğunluğuna baxıldı. Aydınlıq gətirildi ki, konstitusiyaya uyğundur, amma digər normativ aktlarla uyğunluq məsələlərinə də baxılmalıdır ki, sabah problem yaranmasın".

Birinci vitse-spiker Ziyafət Əsgərov bu qanunun qəbulunun ölkəmizin inkişafı üçün önəmli rol oynayacağını bildirdi.

**Vitse-spiker Valeh Ələsgərov isə bu qanunla əlaqədar müzakirələrin olduqca vacib olduğunu bildirdi:** "Qapım həmişə açıqdır, mənim qapıma gəlmək istəmirsinizsə, mən sizin qapınıza gəlim. Çünki önəmli məsələdir, ölkəmiz, xalqımız üçün böyük faydası olacaq" - deyə həmkarlarına səsləndi.

Daha sonra qanun layihəsi fəsil-fəsil və ikinci oxunuşda səsə qoyularaq qəbul olundu. V.Ələsgərov qanunvericiliyə uyğunlaşdırılmasından sonra üçüncü oxunuşda səsə qoyulmasını istədi və təklifi qəbul olundu.

**Bundan sonra parlament daha bir mühüm sənədi - prezident İlham Əliyevin təşəbbüsü ilə hazırlanan "Məcburi dövlət sosial sığorta sahəsində borcların tənzimlənməsi haqqında" qanun layihəsini müzakirəyə çıxartdı. Əmək və sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli bildirdi ki, bu qanun layihəsində üç əsas məsələ öz əksini tapıb.** "Bu məsələlərdən biri 2006-cı ilə qədər olan sığorta haqları üzrə yaranan borclarla bağlıdır. Bunların məbləği 100 milyon manatdır. İkinci məqam 2006-cı ildən 2015-ci il 1 yanvar tarixinə qədər olan borca görə yazılan cərimələrdir ki, bunların da məbləği 55 milyon manatdır. Üçüncü məqam 2015-ci ilin 1 yanvar tarixindən 2018-ci ilin 1 aprel tarixinə qədər yaranmış borclarla bağlıdır ki, onların da həcmi təxminən 26,7 milyon manatdır. Bütün bu tədbirlər sahibkarların iş şəraitinin yaxşılaşdırılması üçün nəzərdə tutulub".

Qanun layihəsində qeyd olunub ki, sığortaedənlərin müvafiq icra hakimiyyəti orqanının uçot sistemində mövcud olan 2015-ci ilin 1 yanvar tarixinədək yaranmış və 2018-ci ilin 1 aprel tarixinədək ödənilməmiş məcburi dövlət sosial sığortası qaydalarının pozulmasına görə tətbiq edilmiş maliyyə sanksiyaları (hesablanmış penya) üzrə borcları tam məbləğdə silinir.

Sığortaedənlərin müvafiq icra hakimiyyəti orqanının uçot sistemində mövcud olan 2015-ci ilin 1 yanvar tarixindən yaranmış və 2018-ci ilin 1 aprel tarixinədək ödənilməmiş məcburi dövlət sosial sığortası qaydalarının pozulmasına görə tətbiq edilmiş maliyyə sanksiyaları (hesablanmış penya) üzrə borcların tənzimlənməsi aşağıdakı qaydada həyata keçirilir:

1. sığortaedənlər tərəfindən 2018-ci ilin aprel-may ayları ərzində həmin maliyyə sanksiyalarının (hesablanmış penyanın) 10 faizi ödənildikdə - maliyyə sanksiyalarının (hesablanmış penyanın) ödənilməmiş 90 faizi silinir,

2. sığortaedənlər tərəfindən 2018-ci ilin aprel-iyul ayları ərzində həmin maliyyə sanksiyalarının (hesablanmış penyanın) 30 faizi ödənildikdə - maliyyə sanksiyalarının (hesablanmış penyanın) ödənilməmiş 70 faizi silinir,

3. sığortaedənlər tərəfindən 2018-ci ilin aprel-sentyabr ayları ərzində həmin maliyyə sanksiyalarının (hesablanmış penyanın) 50 faizi ödənildikdə - maliyyə sanksiyalarının (hesablanmış penyanın) ödənilməmiş 50 faizi silinir.

Layihəyə əsasən, bu, ödənilməsi barəsində məhkəmə qərarı qəbul edilmiş, lakin 2018-ci ilin 1 aprel tarixinə ödənilməmiş borcların qalığına da şamil edilir.

**Deputat Əli Məsimli öncə qanunvercilik təşəbbüsü ilə çıxış etdiyinə görə ölkə prezidentinə təşəkkür etdi:** "Bu, sahibkarların da işini yüngülləşdirəcək. Növbəti addım kimi dollarla olan kreditlərin tənzimlənməsi haqqında qanun layihəsinin, yaxud fərmanın verilməsi çox yaxşı olardı. Cənab prezident sığortaçılarla və sahibkarla bağlı çox vacib, əhəmiyyətli bir sənəd təqdim etdi. Arzu edərdim ki, cənab prezidentin təqdim edəcəyi digər bir sənəd dollar kreditləri ilə bağlı olsun".

**Müzakirələrdən sonra qanun layihəsi qəbul edildi.**

**Qanun 2018-ci il aprelin 1-dən qüvvəyə minəcək.**

**❑ Elşad PAŞASOY, "Yeni Müsavat"**

# Artur Rasi-zadə üçün bəlkə də sonuncu hesabat

## Ermənistan baş naziri ilə danışıqlarda Azərbaycanı yeni baş nazirin təmsil etməsi istisna deyil

**Milli Məclis martın 16-da hökumətin son bir illik fəaliyyətinə qiymət verəcək. İclasda deputatlar Nazirlər Kabinetinin son bir illik fəaliyyətini müzakirə edəcək. Parlamentdə hökumətin 2017-ci ilin yekunlarına dair hesabat məruzəsini baş nazir Artur Rasi-zadənin edəcəyi gözlənilir.**



Böyük ehtimalla bu, Artur Rasi-zadənin baş nazir kimi Milli Məclisdə son hesabatı olacaq.

"Yeni Müsavat"a daxil olan məlumata görə, 11 apreldə keçiriləcək prezident seçkisindən sonra yeni formalaşdırılacaq hökumətin tərkibində baş nazir Artur Rasi-zadə daxil olmaqla, bir neçə indiki nazir yer almayacaq. Artur Rasi-zadənin öz istəyi ilə fəxri təqaüdə göndəriləcəyi, bir neçə nazirin isə köhnə vəzifələrinə bərpa ediləcəyi bildirilir. Mənbə Artur müəllimin baş nazir vəzifəsindən gedəcəyinin tamamilə dəqiq olduğunu vurğulayıb. Nazirlər Kabinetinin 2017-ci ildə fəaliyyəti haqqında hesabatında da göstərilir ki, büdcədən maliyyələşdirilən mərkəzi icra orqanlarının sayının azaldılması və oxşar profilli idarəetmə orqanlarının birləşdirilməsi istiqamətində mütəmadi olaraq işlər aparılır.

Sənəddə həmçinin qeyd edilib ki, dövlət idarəetmə strukturlarının optimallaşdırılması, idarəetmədə təkrarçılığın və paralelliyin aradan qaldırılması, büdcədən maliyyələşdirilən mərkəzi icra orqanlarının sayının azaldılması, oxşar profilli idarəetmə orqanlarının birləşdirilməsi, çoxpilləli idarəetmə quruluşunun ləğv edilməsi, inzibati xərclərin azaldılması, bu sahədə dövlət büdcəsinin vəsaitlərinin səmərəli istifadə edilməsi məqsədilə dövlət büdcəsi xərclərinin tərkibində idarəetmə xərclərinin xüsusi çəkisinin azaldılması istiqamətində mütəmadi olaraq işlər aparılır.

Son illərdə bir sıra nazirliklərin və komitələrinin, habelə, yerli icra orqanlarının sayının azaldılması, onların bəzilərinin ləğv edilməsi, təşkilati-hüquqi formasının dəyişdirilməsi, birləşdirilməsi həyata keçirilib.

Bundan əlavə, aparılan islahatlar sırasında iqtisadiyyatda dövlət sektorunun rolunun səmərəliliyinin artırılmasına xidmət edən bir sıra digər tədbirlərin də icrası nəzərdə tutulur.

Seçkidən sonra formalaşdırılacaq yeni hökumətdə yenidən nazir vəzifəsinə təyin ediləcəyi gözlənilən şəxslərin də adı məlumdur. Sadəcə olaraq, onların məsələsi hörmətli Artur Rasi-zadənin məsələsi qədər yüz faiz qətiləşmədiyi üçün hələlik yazmağı məqsədəuyğun hesab etmirik. Baş nazir vəzifəsinə YAP-ın icra katibi Əli Əhmədovun təyin ediləcəyi deyilir. Qeyd edək ki, Əli Əhmədov 2013-cü il prezident seçkisindən sonra formalaşdırılan hökumətin tərkibinə baş nazirin müavini olaraq daxil edilib. Hazırda o, YAP-ın prezidentliyə namizədi İlham Əliyevin səlahiyyətli nümayəndəsidir.

Yayılan xəbərlərdə həmçinin bildirilir ki, seçkidən sonra baş nazir vəzifəsinin əhəmiyyəti artacaq. Burada Ermənistanda baş nazirin aprelin 2-dən sonra səlahiyyətlərinin fantastik həddə artması və Qarabağ danışıqlarını baş nazirin aparacağı faktorunun da müəyyən qədər rol oynayacağı ehtimal edilir. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov iki gün öncə açıqlamasında deyib ki, hər iki ölkədə hökumətlər formalaşandan sonra sülh danışıqları başlayacaq. Nazirin bu açıqlamasından bu qənaətə də gəlmək olar ki, Ermənistan baş naziri ilə danışıqlarda Azərbaycanı da yeni baş nazirin təmsil etməsi istisna deyil.

Həmin baş nazirin isə fevralın 26-da 84 yaşı olan Artur Rasi-zadənin olmayacağı deqiqdir.

Xatırladaq ki, hörmətli Artur Rasi-zadənin yaşı və səhhəti ilə əlaqədar baş nazir vəzifəsindən getməsinə razılıq verilməsi üçün bir neçə dəfə ölkə rəhbərliyinə müraciət etdiyi haqda indiyə qədər mediada bir neçə dəfə xəbərlər yayılıb.

**❑ Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**




# Beynəlxalq Bank Rusiyanın şübhələndiyi ən böyük filiallarını bağladı

## Rusiyanın Daxili İşlər Nazirliyi Sankt-Peterburq filialını nədə günahlandırırdı?

**Azərbaycan Beynəlxalq Bankı özəlləşdirmə çərçivəsində Rusiyadakı törəmə şirkəti - "MBA-Moskva"nın bir sıra filiallarını bağlamaq qərarına gəlib.**

"Trend" in məlumatına görə, söhbət Sankt-Peterburq və Yekaterinburqdakı filiallardan gedir.

Bankdan verilən məlumata görə, həmin filialların bağlanması barədə qərar diqqəti "MBA-Moskva"nın Moskva regionundakı fəaliyyətinə ayırmaq məqsədi daşıyır.

Məlumatda qeyd olunur ki, Sankt-Peterburq və Yekaterinburq filiallarının müştəriləri ilə iş normal rejimdə davam edir. Martın 5-dən başlayaraq həmin filiallar əmanətlərin qəbul olunmasını dayandırıb və ödəniş sistmeləri vasitəsilə pul köçürmələri həyata keçirmir.

Əmanətlərin qaytarılması isə məhdudiyyət olmadan, adi qaydada həyata keçirilir.

Filialların 2018-ci il aprelin 27-dək bağlanması planlaşdırılır.

"Yeni Müsavat" xəbər verir ki, Beynəlxalq Bankın Moskva filialı 2001-ci ilin yanvarında yaradılıb. Onun nizamnamə kapitalı 2,11 milyard rubl təşkil edib. 2015-ci ilin sonunda Rusiya Mərkəzi Bankı Azərbaycan Beynəlxalq Bankının Moskva filialını çirkli pulların yuyulması haqqında qanunu pozmaqda ittiham etmişdi. Məlumatda bildirilirdi ki, Azərbaycan Beynəlxalq Bankının Moskva filialı "Cinayətkar yollarla əldə edilmiş gəlirlərin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunun 15.27-ci maddəsinin 1-ci hissəsini pozmaqda günahlandırılır. Bu qanun pozuntusuna görə bank inzibati məsuliyyətə cəlb edilib və ona rəsmi xəbərdarlıq olunub".

Beynəlxalq Bankın Sankt-Peterburq şəhərində yerləşən filialının da fəaliyyəti ilə əlaqədar Rusiyanın Daxili İşlər Nazirliyi Mərkəzi Bankın Şimal-qərb baş idarəsinin rəhbərliyinə müraciət etmişdi. Məktubda deyilirdi ki, hüquq-mühafizə orqanları "İnTransServis" ASC ətrafında araşdırma apararkən bankın fəaliyyəti ilə bağlı bir sıra qanunsuzluqlar üzə çıxarıblar.

Məktubda yazılırdı ki, araşdırma nəticəsində üzə çıxarılıb ki, bank cinayət yolu ilə əldə olunmuş vəsaitlərin - çirkli pulların yuyulması, terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizəyə dair qanunlara əməl etmir.

Araşdırmaların nəticəsinə istinadən qeyd edilir ki, eyni adamların yaratdığı "bir günlük" şirkətlər vasitəsilə ölkədən böyük həcmdə vəsaitlər çıxarılıb. Həmin şübhəli pul köçürmələrini də "Azərbaycan Beynəlxalq Bankı-Moskva" həyata keçirib.

Məktubda xahiş olunurdu ki, "Azərbaycan Beynəlxalq Bankı-Moskva"ya vəzifə öhdəlikləri, o cümlədən çirkli pulların yuyulmasının qarşısını alan qanunlara əməl olunmasının zəruriliyi xatırladılsın, şübhəli əməliyyatlar haqda hüquq-mühafizə orqanlarına məlumat verilsin.

Bankın Yekaterinburq filialı 2005-ci ilin sentyabrında açılıb. Həmçinin "ABB-Moskva"nın Yekaterinburqda "Taqanskiy" əlavə ofisi fəaliyyət göstərib. Bu filial "Western Union", "Zolotaya korona", "İBA-express" və "SWİFT" sistemləri ilə yaxın və uzaq xaricə pul köçürmələri xidmətinin həyata keçirib.

**❑ "YM"**

# Novruz bayramı dolların məzənnəsini "cücərdə" bilər

## Ekspert: "Azərbaycanda real üzən məzənnə rejimi deyil, hökumətin istədiyi məzənnədir"

**Azərbaycanda hər bayram ərəfəsi bazarlarda qiymətlə yanaşı, dolların məzənnəsində də artım olur. Novruz bayramının yaxınlaşdığı indiki ərəfədə də bayram tətillərindən yararlanıb xaricə getmək istəyənləri dolların bahalaşıb-bahalaşmayacağı narahat etməkdədir.**

Bəzi mənbələr ABŞ Federal Ehtiyatlar Sisteminin (FED) uçot dərəcəsini qaldırmaq barədə qərarının olacağı təqdirdə martın ortalarından etibarən dolların Azərbaycanda da məzənnəsinin artacağını proqnozlaşdırırlar. Bir çoxları isə hesab edir ki, əvvəlki illərdən fərqli olaraq, qarşıdan prezident seçkiləri gəldiyi üçün bu dəfə bayram ərəfəsində dolların məzənnəsində dəyişikliyə hökumət imkan verməyəcək. Bundan başqa, güman edilir ki, Novruz bayramı günlərində Azərbaycana daha çox sayda turistlərin gələcəyi gözlənilir, bu səbəbdən də dolların məzənnəsi məqsədyönlü şəkildə aşağı salınacaq.

Bu ehtimalları şərh edən **iqtisadçı-ekspert Natiq Cəfərli** deyir ki, Mərkəzi Bank rəsmilərinin son açıqlamaları bir daha Azərbaycanda manatın məzənnəsinin nəzarətdə saxlandığını sübut edib: "Onların dedikləri bir etiraf idi ki, Azərbaycanda real üzən məzənnə rejimi deyil, hökumətin istədiyi məzənnədir. İndiki şəraitdə ölkədə dollara olan tələbat artır. Həm bayramqabağı malların idxalı, həm də tətil günlərindən istifadə edib xaricdə istirahətə gedənlərin dollar alışı artır. Bu iki amil ölkədə dollara tələbatı artırır".



Buna rəğmən, ekspert ölkədə dolların məzənnəsində hər hansı ciddi dəyişiklik gözləmir: "Həm Mərkəzi Bankın, həm də Dövlət Neft Fondunun əlində kifayət qədər rezervlər var ki, dolların məzənnəsinin artmasına imkan verilməsin. Bildiyiniz kimi, dünya bazarında neftin qiyməti 65-66 dollar ətrafında dəyişir ki, bu da Azərbaycan hökuməti üçün komfortlu qiymətdir. Hətta qarşıdan gələn prezident seçkiləri olmasaydı belə, yaxın aylarda manatın məzənnəsində hansısa ciddi dəyişikliklərə yol verilməyəcəkdi. İndiki məzənnə hökumət üçün sərfəlidir. Onun aşağı düşməsinə - yeni dolların ucuzlaşmasına da hökumət imkan verəsi deyil. Çünki indiki məzənnə şərtləri dövlət büdcəsi üzrə proqnozların icrasına müsbət zəmin yaradır. Dollar ucuzlaşarsa, müəyyən çətinliklər də meydana gələ bilər".

**N.Cəfərli deyir ki, FED uçot dərəcəsinin artırılması qərarı verərsə, bu, dünyada dolların məzənnəsinin artmasına gətirib çıxara bilər:** "Lakin bu dalğanın Azərbaycanda da təkrarlanacağı gözlənilən deyil. Çünki tam inzibati bir məzənnə rejimidir. Digər tərəfdən, dünyada baş verən proseslərə həmən reaksiya verəcək institutlar yoxdur ölkədə. Amma Federal Ehtiyatlar Sisteminin uçot dərəcəsini artırmaq barədə qərarları təkrarlanacaqsa, bu, dünya bazarında neftin qiymətinin də düşməsini şərtləndirəcək. Buna görə də ola bilsin ki, ilin sonlarında Azərbaycan hökuməti məzənnə siyasətində hansısa dəyişikliklərə getsin. Ona qədərsə hər hansı məzənnə oynaması gözlənilən deyil".

**❑ DÜNYA,**
**"Yeni Müsavat"**

# Narkoloji Mərkəz yanğınında sensasion həbs: bir alışqan 25 nəfəri necə məhv edib...

## Sübut olunsa ki, təqsirləndirilən Məhəmməd Məmmədovun psixi problemi var, o zaman həmin şəxs cinayət məsuliyyətindən azad oluna və qapalı şəraitdə müalicəyə göndərilə bilər; qısaqapanma versiyası niyə təkzib olundu?

**Martın 2-də Narkoloji Mərkəzdə baş vermiş yanğını törədən həbs edilib. Martın 6-da bununla bağlı yayılan rəsmi məlumatda deyilir ki, prezidentin tapşırığına əsasən təxirəsalınmaz prosessual hərəkətlər və əməliyyat-axtarış tədbirləri həyata keçirilməklə zərərçəkmiş şəxslər və mərkəzin tibb personalı şahid qismində dindirilib, zəruri ekspertizalar təyin edilib.**



Görülmüş tədbirlərlə Narkoloji Mərkəzdə "alkoqol qəbulu nəticəsində psixi və davranış pozuntuları" diaqnozu ilə müalicə alan Bakı şəhər sakini Məhəmməd Məmmədov 2018-ci il mart ayının 3-də həmin cinayətdə şübhəli şəxs qismində tutulub. İlkin dindirmə zamanı cinayəti törətdiyini etiraf edən Məhəmməd Məmmədov ailə üzvlərinin ona qərəzli münasibətinə etiraz ələməti olaraq və Narkoloji Mərkəzdə müalicə almaq istəmədiyinə görə intihar etmək qərarına gəldiyini bildirib. Bu məqsədlə mart ayının 2-si saat 06 radələrində qaldığı palatada yorğana bürünərək onu alışqanla yandırdığını, alov gücləndikdə özünü öldürmək niyyətindən daşınıb yanan yorğanı çarpayısının üstünə atdığını, alovun digər palatalara keçməsindən qorxduğu üçün şöbənin qapısı açılan kimi mərkəzi tərk etdiyini göstərib.

Qeyd edilənlər şahid ifadələri, hadisənin başvermə mexanizmi və mərkəzdə olan müşahidə kameralarının görüntüləri ilə təsdiqlənib.

Məhəmməd Məmmədov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.2.4-cü (ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.7-ci (iki və ya daha çox şəxsi öldürmə), 120.2.9-cu (köməksiz vəziyyətdə olan adamı öldürmə) və 186.2.2-ci (yandırmaqla özgə əmlakını qəsdən məhv etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilmiş, eləcə də kompleks məhkəmə psixiatrik, psixoloji və narkoloji ekspertizalar təyin olunub.

M.Məmmədov haqda əlavə məlumat verilməyib.

"Yeni Müsavat" bildirir ki, cinayət işi qaldırılan zaman üzərində 20-dən çox ekspertiza təyin edilir. Əvvəlcə məhkəmə psixiatrik ekspertizası təyin olunur. Yəni cinayət törətmiş şəxsin psixoloji durumu araşdırılır. Bu araşdırma həm cinayət törədilənədək, həm də cinayət törətdikdən sonrakı mərhələni əhatə edir. Bəzi hallarda insan cinayət törətdikdən sonra da həmin xəstəliyə yoluxa bilər. Təqsirləndirilən şəxs hər iki halda cinayət məsuliyyətindən azad olunur. Amma həmin şəxs ictimaiyyət üçün təhlükəli olduğu üçün məcburi surətdə müalicəyə qəbul edilir. Qanunda kimin cinayət məsuliyyətindən azad olunması qeyd olunur. Cinayət törədən zaman affek vəziyyətində olan və ya cinayət törətdikdən sonra psixologiyası pozulmuş şəxslər cinayət məsuliyyətindən azad olunurlar. Sübut olunsa ki, təqsirləndirilən şəxsin həqiqətən ruhi problemi var, o zaman həmin şəxs cinayət məsuliyyətindən azad olunur və müvafiq olaraq müalicə olunmaq üçün qapalı şəraitdə ruhi əsəb dispanserlərinə müalicəyə göndərilir. Ola bilər ki, həbs olunduqdan sonra şəxsdə ruhi-psixoloji problemlər yaransın. Bu halda da onlar müvafiq olaraq dispanserlərdə müalicəyə yerləşdirilir. Həmin şəxs sonradan həbsxanalara göndərilə bilməz.

Yada salaq ki, hadisədən sonra ilk versiya yanğının qısaqapanmadan baş verdiyi iddia olunurdu. Baş nazirin müavini, yanğınla bağlı yaradılmış dövlət komissiyasının rəhbəri Abid Şərifov da demişdi ki, aidiyyəti qurumlar - Fövqəladə Hallar Nazirliyi, Baş Prokurorluq və Daxili İşlər Nazirliyi tərəfindən ilkin səbəb kimi elektrik naqillərində baş verən qısaqapanma versiyası irəli sürülüb. A.Şərifov əlavə etmişdi ki, yanğınla bağlı digər versiyalar da araşdırılır.

Martın 6-da həmçinin yanğın zamanı həlak olmuş 16 nəfərin meyit səhər saatlarında ailə üzvlərinə təhvil verilib.

Xatırladaq ki, ölənlərdən 9-nun meyitinin şəxsiyyəti müəyyənləşdirilərək martın 3-də ailə üzvlərinə təhvil verilib.

Bu arada məlum olub ki, Azərbaycanda yalnız 2017-ci il ərzində 2 min 115 narkoman qeydiyyata götürülüb.

Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinin Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasına təqdim etdiyi hesabata əsasən keçən il qeydiyyata götürülən narkomanlardan 1566 nəfər dispanser, 549 nəfər profilaktik qeydiyyatdadır.

Beləliklə, Azərbaycan üzrə 30 dekabr 2017-ci il tarixinə qeydiyyatda olan narkomanların ümumi sayı 30 min 131 nəfər olub. Bu narkomanlardan 25 min 139 nəfər dispanser, 4 min 992 nəfər profilaktik qeydiyyatdadır. Narkomanlar arasında 595 qadın var. Toksikomanların ümumi sayı isə 212 nəfərdir. İnyeksion narkotik istifadəçilərinin sayı 21 min 38 nəfər təşkil edir. Onlardan 470 nəfəri qadındır.

❑ **ORXAN, "Yeni Müsavat"**

# Dəm qazının məhv etdiyi ailə üzvləri dəfn olundu

**Sumqayıtda baş vermiş dəhşətli hadisədə ölən 6 nəfər dəfn edilib. Lent.az xəbər verir ki, bədbəxt hadisə nəticəsində ölən bir ailənin üzvlərinin meyitləri Məhkəmə Tibbi-Ekspertiza və Patoloji Anatomiya Birliyi Sumqayıt şəhər şöbəsindən yaxın qohumlarına təhvil verilib. Əslən Füzuli rayonunun Kərimbəyli kəndindən olan ailənin bütün üzvləri Sumqayıt şəhərindəki qəbiristanlıqda yanaşı dəfn edilib.**



Sumqayıt Şəhər Prokurorluğundan lent.az-a verilən məlumata görə, Sülh küçəsi, 5-ci məhəllədəki binanın zirzəmisində dəm qazından boğularaq ölənlər 1961-ci il təvəllüdlü Rafiq Hüseynov, həyat yoldaşı, 1965-ci il təvəllüdlü Yeganə Hüseynova, qızı, 1987-ci il təvəllüdlü Sara Hüseynova və nəvələri: 2009-cu il təvəllüdlü Fərid Abbasov, 2010-cu il təvəllüdlü Zenfira Abbasova və 2012-ci il təvəllüdlü Yeganə Abbasova təxminən 15-20 gün əvvəl oraya köçüb. Hadisə isə 8-10 gün əvvəl baş verib.

Faktla bağlı Cinayət Məcəlləsinin 314.3-cü (səhlənkarlıq - ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, araşdırma aparılır.

# Siyasi mübarizənin yeni mərhələsi - pəşov



**Samir SARI**

**O gün deputat Siyavuş Novruzov deyib ki, siyasətdə əxlaqsızlıq etmək olmaz, mübarizəni kişi kimi aparmaq lazımdır.**

Kim bu fikrə qarşı çıxa bilər? Heç kim. Əslində bu sözü Siyavuş Novruzovdan da qabaq çox deyiblər, ondan sonra da çox deyəcəklər. Amma siyasətdə mübarizənin kişi kimi aparılması faktı hələm-hələm qeydə alınmayacaq.

Sanki bu peşənin fitrətində var, mütləq ətrafında çirkab, xoşagəlməz, hətta iyrənc söhbətlər, dava-dalaşlar, süpürləşmələr olmalıdır. Başqa cür mümkün deyil, sanki.

Mən gözümü açıb belə görmüşəm. Düzdür, sovet dövründə elə də siz deyən siyasət-filan yox idi, amma partiyadaxili intriqalar vardı. Yenə kimlərsə seçkili orqanlara seçilmək üçün mübarizə, intriqa aparırdı, rəqibini gözdən salmaq üçün onun içki düşkünü, məişət pozğunu olduğunu iddia edirdi.

O "məişət pozğunu" olmaqda ittiham edilmək vardı ha, bu gün seks videosu çıxmaq kimi şey idi. Sadəcə, o vaxtlar müvafiq fotoşəkillər, videosüjetlər çəkmək imkanı yox idi, eləcə şifahi şəkildə deyilirdi. Ən böyük ittiham isə ondan ibarət olurdu ki, "bu şəxs kommunistə yaraşmayan hərəkətlər edir, daha bir arvad saxlayır".

Bu cür ittihamlara görə partbiletini təhvil verənlər olurdu. Daha dəqiqi, yüksək vəzifəli bir şəxs "daha bir arvad saxlayan" kommunisti kabinetinə çağırıb üstünə qışqırırdı, deyirdi, partbileti qoy stolun üstünə, rədd ol bayıra, pozğun!"

Orası da vardı ki, rəqiblər partiya iclaslarında ağız-ağıza verib söyüşməzdilər, arvad-uşaq, nəsil-şəcərə söhbəti eləməzdilər. Düzdür, onlar bir-birinin haqqında elə ittihamlar irəli sürərdilər ki, dalına düşən olsa, ikisinə güllələmə hökmü kəsilərdi, amma dillərinə pis söyüş gətirməzdilər. Kommunist əxlaqı imkanı verməzdi.

Heç o vaxt rəqabəti uduzanlar, bir-birini öldürməyə hazır olanlar gedib kiminsə atasının qəbrinə pəşov da eləməzdilər.

Bu, xətalı iş idi. Bunu kim eləsə, nəsillər arasında elə bir qırğın düşə bilərdi ki, sovet hökuməti gərək döyüş bölgəsinə ordu yeridəydi. Yəni birinin əzizinin məzarının təhqir olunması çox yekə söhbətdir, onun altında bir tanker qan var.

İndi görün, insanlar necə məsuliyyətsizləşib ki, belə bir hərəkət etməkdən qorxmurlar.

Düzdür, yeni videolar çəkilib, ortaya faktlar qoyulub, bəlli olur ki, təhqir olunan məzar heç də adı çəkilən şəxsin atasına məxsus deyil. Amma fərqi yoxdur, lap belə gedib çaylaqda yekə bir daşın üstünə pəşov edib, "bu filankəsin atasının qəbridir" deyirlərsə, artıq həqarət öz ünvanına çatmış olur.

Belə yerdə nə baş verməlidir? Bu yerdə hökumət orqanları məzarlıqda video çəkə-çəkə, sələn-sələn hərəkət edən o şəxsləri tapmalıdır, ikisinin qoluna bir qandal vurub bölməyə gətirməlidir, orada onlara "düz iş görməmisiniz" deməlidir. Sonra məhkəmədə o "qoçaq"ların hərəsinə layiq olduqları cəza kəsilməlidir və iş bitməlidir.

Yoxsa cəzasızlıq olacaqsa, indən belə kimin kimdən xoşu gəlmir, iki-üç litr pivə içib cumacaq qəbristanlığa ki, qisas almağa gəlmişəm.

Beləcə, siyasi mübarizədə yeni mərhələ başlayacaq, kompromat müharibəsini "sidik çiləmə" müharibəsi əvəz edəcək.

Ayıbdırmı? Ayıbdır. Axtarsan, bu mübarizə üsuluna bənzər hərəkətlərə qeyri-mədəni cəmiyyətlərdə, üçüncü dünya ölkələrində rast gələrsən. Amma əmin olun ki, at maralı arvadların seçkidə qalib gəldiyi Finlandiyada, adlarını "pe-tux"luğa çıxartdığımız Hollandiya və Fransada (və sair və ilaxır) belə şey görməzsiniz. Oralarda hansısa büstün, abidənin üstünə boya atılanda media "vandalizm aktı" deyib haray salır, hamı tökülüşüb qınayır.

Bir də gərək hər kəsin dilinə yiyəlik eləsin, ağzına gələni danışmasın, əlinə sahib çıxsın, beynindəki çirkabı klaviaturaya axıtmasın. Siyavuş Novruzov demişkən, "birinin əsəbi dözür, birininki dözmür", əli düşməninə çatmayanda hirslənib cumur pivəxanaya ki, kanistri doldursun, qisas günüdür.

Adam bu kimi hadisələrə baxır, baxır, xeyli müddət deməyə söz tapmır, axırda fikirləşir ki, gör hansı səviyyədəyik. Camaat ballistik raket qayırır, Marsa cihaz göndərir, biz soxulcan səviyyəsinə düşüb gor eşirik.



# Bülletenlərin sayı haqda təkliflərim

**Zamin HACI**
zaminhaci@gmail.com

"Qırx küp, qırxının da qulpu qırıq küp"
*(test sualı)*

**Mərkəzi Seçki Komissiyasının sədri Məzahir müəllim qarşıdan gələn növbədənkənar prezident seçkilərində uca millətimizə lazım olacaq bülletenlərin sayını açıqlamışdır: 5 milyon 347 min 803 dənə. Görün necə dəqiqliklə çalışırlar. Bir dənə bülleten artıq, ya bir dənə bülleten əskik ola bilməz. Yoxsa Məzahir müəllim deyərdi ki, təxminən 5 milyon 300 min dənə bülletenimiz olacaqdır. Ya da uzağı "5 milyon 340 min dənə". Lap özünü öldürsə, 347 min dənə. Ta bu 803 dənə nə deməkdir? Heç NASA kosmosa raket göndərəndə trayektoriyanı bu cür dəqiq verə bilmir. Həmişə deyirlər ola bilər raket partlasın, buluda girəndə islansın, üstünə quş zılı düşsün, kosmonavt qatıq yeyəndə çeçəyib ölsün, quymaqdan dişi sınsın və sairə.**

Dünyada hamının belənçik təxminləri vardır. Əcələ güman yoxdur axı. Yalnız bizim seçkilər həmişə dəqiqə olur. 803 dənə bülleten lazımdır? Buyur. Məmmədin yerinə səs vermək fikrindəsən? Ala, üç barmağın məşhur konfiqurasiyası gözünə girsin. Protokolu saxtalaşdıracaqsan? Əlini kəsərik.

Ancaq məncə, Məzahir müəllim yeni dövrü, iqtisadi inkişafımızı, qarşıdan gələn idman yarışlarını, Burundi Cümhuriyyəti ilə respublikamız arasında dostluq və qardaşlıq münasibətlərinin yaranmasının 20 illiyinin yaxınlaşmasını nəzərə alıb bülletenlərin çapını müəyyən dərəcədə çox eləsə yaxşıdır. Çap maşını işə salınmışkən... Çünki yuxarıda sadaladığım amillər bizdə daha bir növbədənkənar seçkinin keçirilməsini labüd edə bilər. Oldu oldu da bə. Neyləyəcəyik? Kimin ağlına gələrdi yanvarda fikirləşsin apreldə seçki olacaq? Fikirləşirdik, uzağı oktyabrda olar. Ən yaxşı halda sentyabrda. Bəlkə də avqustda. Yay sərin keçsə, iyunda. Ancaq fevralda qərar çıxdı, qəfildən seçki aprelə düşdü. İndinin özündə növbədənkənar seçkidən bir ay sonra, may ayında təzə növbədənkənar seçki elan edilsə, Məzahir müəllim seçki bülletenini nə cür çap edəcəkdir? Bunu çatdırmaq var, dəqiq sayı əhatə eləmək var... Birdən çap elədin, 5 milyon 347 min 800 dənəsində çap maşını sındı. Nə qayıracaqsan? 3 dənə bülleteni haradan, yaxud hansı yerdən çıxaracaqsan? Seçki bülletenini əldə yazıb verəsi deyilsən. Bizdə bülletenlər müqəddəsdir, göz bəbəyi kimi qorunur, seçki saxtakarlığı etmək cəhdi fikrini xəyali olaraq arzu edən və bunu yuxuda görənlərin isə yuxusu həbs edilir. Barmağımıza ultrabənövşəyi mürəkkəblə həna yaxılır, imzalarımız infraqırmızı şüalardan keçirilir, verdiyimiz səslər Hiqqs bozonları ilə bəzədilir, müəllimlər məktəblərdə protokolları sinələrində, ürəklərinin başında, aorta-koronar şah damarlarının üstündə gəzdirirlər. Nəsə, bunlar ayrı temadır.

Sözümün canı odur ki, hər ehtimala qarşı bülletenləri azı iki nüsxədə çap eləsək yaxşıdır. Lap dəqiq yazsam, 10 milyon 695 min 606 dənə. Əlimizin altında hazır dursun. Bu bizim necə ciddi millət olmağımızı da dünyaya tərənnüm edəcəkdir! Hərdən məndə belə təsəvvür yaranır ki, Azərbaycan qalaktikanın mərkəzidir. Örnək üçün bu yaxında Bakıda, Balaxanı qəsəbəsinin Müsavat küçəsində qətl hadisəsi törədilmişdi (yəqin küçənin adındakı müxalif elementlərin rolu olmuşdur). Kişi ördək saxlayırmış. İşdən qayıdanda görüb ki, arvad ördəyi kəsib bişiribdir. Qəzəblənərək arvadı taxta parçası ilə döymüşdür. Arvadın döyülməsi onun qardaşına çatdırılmışdır. (bizdə KİV güclü işləyir). Qardaş davaya gəlmiş, ərlə bıçaqlaşmışlar. Sonra kimsə qardaşın qardaşını, ya da qonşunu davaya cəlb etmişdir - dəqiq yadımda deyil. Bunlar uzun müddət süpürləşmiş, qan su yerinə axmış, ördəyin qanına qarışaraq ördək-insan qardaşlığı yaranmasına səbəb olmuşdur. Axırda hüquq-mühafizə orqanları gəlib tərəfimizdən aşkar ediləcək 1 ədəd ördək pətənəsi, 1 ədəd dümbül, 2 lələk, 3 qram qardaş qanı götürülmüşdür. İstintaq gedir, məhkəmə də böyründə. Ola bilsin ördəyin bir budunu da hakimə verdilər.

Siz sağ, mən salamat. Onlar yedilər içdilər yerə keçdilər, siz yeyin, için Almaniyaya köçün.

# İrəvanın "iki stul"da oturmaq siyasəti dəngəni dəyişir

**İşğalçı Ermənistanda martın 2-də, parlamentdə baş tutmuş növbəti prezident seçkisi ətrafında müzakirələr davam edir. Bəllidir ki, səsvermə nəticəsində Böyük Britaniyada səfir işləmiş və imkanlı iş adamı, hakim Respublikaçılar Partiyasının namizədi Armen Sərkisyan 10 səsə qarşı 90 səslə, alternativsiz prezident seçilib.**



## Qarabağla bağlı 3 ssenari - Rusiya "valı" çevirir

### Ermənistanda prezident dəyişikliyinə şimaldan ilginc reaksiyalar; **rusiyalı tanınmış politoloq:** "Ermənilər növbəti dəfə Rusiyanı satdılar, nəticəsi o olacaq ki..."

Ən maraqlı məqamlardan biri isə onun ikili vətəndaşlıq daşımasıdır. Daha doğrusu, namizədliyi verilən ərəfədə Ermənistan vətəndaşlığını qəbul eləməsidir. Çünki Ermənistan konstitusiyası ikili vətəndaşlığa icazə vermir. Bundan başqa, yeni prezidenti Qərbə bağlı şəxs kimi təqdim edənlər az deyil.

Yəni belə qənaət hasil olur ki, Ermənistandakı hakim rejim əslində bununla Qərbə növbəti reverans edib. "Yeni Müsavat" xatırladır ki, az öncə - keçən ilin noyabrında Ermənistan Avropa Birliyi (AB) ilə tərəfdaşlıq sazişi imzalamaqla Rusiyada qıcıq yaratmışdı.

Bundan qabaq isə İrəvanda faşist əlaltısı Qaregin Njdeyə abidə ucaltmaqla işğalçı ölkə Rusiyanın qınağına tuş gəlmişdi. Hətta məsələyə Rusiya XİN-i etiraz bildirərək, hadisəni qəbuledilməz adlandırmışdı. **"Rusiya nasizm təzahürlərinin qəhrəmanlıq kimi qələmə verilməsinə qarşıdır. Biz ermənilərin Böyük Vətən müharibəsindəki şücaəti haqda bilirik, ona görə belə bir heykəlin İrəvanda niyə qoyulmasını anlamırıq".** Rusiya XİN-in sözçüsü Mariya Zaxarova belə demişdi. Lakin Njdenin abidəsi bu gün də yerində durur.

*****

Qayıdaq İrəvanın Qərbə seçki reveransına.

İşğalçı ölkədə son prezident seçki formal xarakter daşısa da, - yeni prezidentin səlahiyyətləri sələflərindən fərqli olaraq, məhdud olacaq, - prosesin özü və onun mümkün nəticələri indi ən müxtəlif rakurslardan, o cümlədən Qərb-Rusiya qarşıdurması və Qarabağ kontekstində təhlil edilməkdədir. Məsələn, parlamentin müxalifət yönlü "Yelk" ("Çıxış") blokunun üzvü Nikol Paşinyana görə, Armen Sərkisyan ölkənin prezidenti yox, hakim mafiyanın üzvü seçilib.

Onun sözlərinə görə, Armen Sərkisyan da bundan sonra hakim partiyaya müqavimət göstərməyəcək. **"Ermənistan konstitusiyası Ermənistan vətəndaşının başqa ölkənin vətəndaşı olmasını qadağan edir. Əgər Armen Sərkisyan 2002-ci ildə Britaniya vətəndaşlığı alıbsa, o zaman Ermənistan vətəndaşlığından imtina etmiş sayılır. Bəs bu adam necə prezident seçilib? O, sadəcə, hakim rejimə bağlıdır və ondan asılıdır"**, - deyə erməni deputat vurğulayıb.

*****

Öz növbəsində **rusiyalı tanınmış tarixçi-analitik Oleq Kuznetsov** İngiltərədəki səfirin Ermənistan prezidenti təyin edilməsinin Rusiyanın təhlükəsizliyi baxımından Moskvaya əlavə problemlər yaradacağını söyləyib. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə o, "İnterfaks-Azerbaydjan" agentliyinə müsahibəsində deyib.

**"Ermənistan Avropa Birliyi ilə assosiasiya sazişi imzalayanda Rusiya siyasi elitası real olaraq şok keçirdi. Böyük Britaniyadakı sabiq səfirin Ermənistan prezidenti seçilməsi isə Rusiya üçün "ikinci şillə" oldu"**, - deyə o qeyd edib.

Politoloqun sözlərinə görə, qəfildən Ermənistan vətəndaşlığını qəbul eləmiş şəxsin, ola bilsin hətta xarici vətəndaşın prezident seçilməsi onu göstərir ki, Rusiya buna hazır olmayıb və böyük ehtimalla, İrəvanın Rusiya əleyhinə apardığı Avrointeqrasiya siyasətinin davamıdır: **"Yumşaq desək, Rusiyanın Qafqaza yönəlik xarici siyasəti tam fiaskoya uğrayıb və Ermənilər növbəti dəfə Rusiyanı satıblar. Mən əminəm ki, Ermənistanın xarici siyasət kursunu Rusiyadan Qərbə dəyişməsi Kreml üçün təhlükəsizlik planında böyük problem yaradır. Məsələ ondadır ki, bizim Ermənistanla kollektiv hərbi qruplaşma barədə anlaşmamız var. Buradan çıxış edərək söyləmək olar ki, Rusiya üçün ciddi təhlükə yaranır. Yəni hansısa gizli şeyləri Ermənistan Qərbə ötürəcək. Heç bir zəmanət yoxdur ki, Rusiya Silahlı Qüvvələri ilə Ermənistan qüvvələri arasında mövcud olan "özününkü-yad" kodları (Radiolokasiya tanıtma sistemi - red.) Qərbin əlinə keçməyəcək və bu kodlar altında Rusiya Federasiyası üzərində icazəsiz uçuşlar həyata keçirilməyəcək".**

Ekspert mövcud vəziyyətdə hadisələrin üç mümkün inkişaf variantını ehtimal edir: **"Birinci variant Rusiyanın Cənubi Qafqaz siyasətinin iflas olmasıdır. Bundan sonra Moskva hansısa sanksiyalar tətbiq edir və hansısa formada reaksiya veririk. İkinci variant: etiraf edirik ki, bu, bizim regionda xarici siyasət uğursuzluğumuzdur və heç bir reaksiya vermirik. Üçüncü variant: baş verənlər Rusiyanın Ermənistana münasibətdə məqsədli şəkildə yürütdüyü siyasətin nəticəsidir. Əgər birinci variantdan çıxış edək, o zaman biz Azərbaycanın işğal altındakı ərazilərlə bağlı atacağı istənilən addımı bəyənməliyik. İkinci variantdırsa, o zaman Qarabağ nizamlanmasına dair danışıqlar davam etməlidir. Üçüncü variantda isə Azərbaycan üçün Dağlıq Qarabağ konflikti kontekstində heç nə vəd olunmur".**

Öz növbəsində digər **tanınmış rusiyalı politoloq Sergey Markov** bu qənaətdədir ki, Armen Sərkisyan kimi bir adamın Ermənistanda prezident postuna gətirilməsi erməni lobbisinin rəsmi İrəvana təsirini gücləndirə bilər. "Yeni Müsavat"ın məlumatına görə politoloq deyib: **"Dağlıq Qarabağ məsələsində diaspora bir qayda olaraq, Ermənistan əhalisindən daha radikal mövqe tutur. Bu da perspektivdə Ermənistanın Qarabağla bağlı kursunun daha sərtləşməsinə gətirə bilər. Ancaq bu, ehtimaldır"**, - deyə Sergey Markov əlavə edib.

*****

Göründüyü kimi, İrəvanın "iki stul"da oturmaq siyasəti getdikcə daha qabarıq çalar almaqdadır. Daha dəqiqi, bu siyasət Qərbin xeyrinə reveranslarla zənginləşməkdədir. Rəsmi Kremlin buna reaksiyasını yəqin ki, çox gözləmək lazım gəlməyəcək. Ən azı ona görə ki, Ermənistan Güney Qafqazda Rusiyanın əsas hərbi qalası və bölgədəki "gözüdür"...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# Namizədlər üçün son 5 gün

## Mətbuat Şurası seçki ilə bağlı araşdırma aparacaq

**Azərbaycanda aprelin 11-nə təyin edilmiş prezident seçkisi ilə bağlı bir sıra prosedurlar bu gün başa çatır. Prezident seçkilərinin hazırlanıb-keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planına əsasən, martın 7-dək məntəqə seçki komissiyaları tərəfindən seçicilərin tanış olması üçün təqdim edilmiş seçici siyahılarında əlavə dəqiqləşdirmələrin aparılması prosesi başa çatmalıdır.**



Bundan əlavə, Mərkəzi Seçki Komissiyası tərəfindən seçki bülletenlərinin hazırlanması qaydasına, mətninə, formasına, sayına, hazırlanmasına aid tələblərin təsdiq edilməsi proseduru da martın 7-dək başa çatır.

Martın 6-da isə MSK-nın növbəti iclası keçirilib. İclasda seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanması qaydası müzakirəyə çıxarılıb. Məsələ barədə MSK katibi Arifə Muxtarova məlumat verib. A. Muxtarova bildirib ki, Seçki Məcəlləsinin tələbinə əsasən seçicilərin sayının 3 faizindən artıq olmamaq şərti ilə seçki bülleteni hazırlanmalıdır.

Aprelin 11-nə təyin edilmiş prezident seçkisi ilə əlaqədar 5 milyon 347 min 804 ədəd seçki bülleteni hazırlanacaq. Məsələ səsverməyə çıxarılaraq qəbul edilib. MSK-nın iclasında həmçinin YAP-ın Mərkəzi Seçki Komissiyasındakı məşvərətçi səs hüquqlu üzvü təsdiqlənib. Deputat Aydın Mirzəzadə YAP-ın MSK-ya təyin edilmiş məşvərətçi səs hüquqlu üzvü kimi təsdiqlənib. İclasda bəzi dairə seçki komissiyalarının tərkibində də dəyişiklik edilib. Həmçinin MSK sədri Məzahir Pənahov prezident seçkisi ilə bağlı Müstəqil Media Mərkəzi yaradıldığını açıqlayıb. O bildirib ki, Media Mərkəzində hazırlıq işləri başa çatıb və bu gün (dünən-red.) açılışı olacaq. Onun sözlərinə görə, istənilən maraqlı tərəf, prezidentliyə namizəd, onun səlahiyyətli nümayəndəsi media mərkəzində mətbuat konfransları keçirə və mərkəzin digər imkanlarından yararlana bilər.

**Azərbaycan Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov isə Sechki-2018.az-a seçki prosesinin mediada işıqlandırılması ilə bağlı açıqlama verib:** "Növbədənkənar prezident seçkisi ilə bağlı Azərbaycan mediasında vaxtaşırı materiallar gedir. Hazırda namizədlərin irəli sürülməsi, qeydiyyatı və onların imzatoplaması kampaniyası ilə bağlı birinci mərhələ həyata keçirilir. Bununla əlaqədar Azərbaycan mediasında xeyli sayda materiallar dərc olunur. Prezidentliyə namizədlərə fərq qoymadan Mərkəzi Seçki Komissiyasının məlumatları demək olar ki, mütəmadi yayımlanır. Martın 19-dan sonra isə təbliğat-təşviqat kampaniyasına start veriləcək. Bu müddətdə Azərbaycan Mətbuat Şurası həm elektron, həm yazılı, həm də digər kütləvi informasiya vasitələrində monitorinq aparacaq. Seçkilərin necə işıqlandırılması, namizədlərə nə qədər vaxtın ayrılması, namizədlərə münasibətin necə olması ilə bağlı məsələlər araşdırılacaq".

**Ə.Amaşov qeyd edib ki, medianın seçkilərə münasibəti həmin monitorinqdə öz əksini tapacaq:** "Apardığımız müşahidələr onu göstərir ki, Azərbaycan mediasında namizədlərlə bağlı verilən materiallarda, seçki proseslərində ciddi anlaşılmazlıq, problemlər yoxdur. Ən əsas mərhələ martın 19-dan sonra başlayacaq. Həmin müddət Mətbuat Şurasının diqqətindən yayınmayacaq".

Növbədənkənar prezident seçkisinin ödənişli təşviqatına qoşulan media qurumlarının sayı isə artıb. MSK-dan verilən xəbərə görə, "Xalq qəzeti" və aktual.az saytı Mərkəzi Seçki Komissiyasına bildiriş göndəriblər. Daha əvvəl İctimai Televiziya və Radio Yayımları Şirkəti, "Cümhuriyyət", "Olaylar", "Səs", "Palitra" qəzetləri, "Səs", "Olaylar" informasiya agentlikləri, report.az, moderator.az, cəbhə.info, avropa.info saytları bildiriş göndəriblər.

Qaydaya görə, ödənişli təşviqata qoşulmaq istəyən media qurumları MSK-ya bildirişlər göndərməli, ödənişin əsasları, şərtləri və məbləği barəsində məlumatları seçkinin təyin edilməsi haqqında qərarın rəsmi dərcindən sonra ən geci 30 gün keçənədək dərc etməlidirlər.

Ödənişsiz təşviqat isə İctimai Televiziya və Radio Yayımları Şirkətində, "Azərbaycan", "Bakinski raboçi" qəzetlərində və "Xalq qəzeti"ndə aparılacaq.

Namizədliyin qeydə alınması üçün lazım olan imzaların toplanıb MSK-ya təqdim olunması üçün ayrılan vaxt isə 12 mart saat 18.00-da başa çatacaq. Artıq iddiaçıların əksəriyyəti imzatoplama kampaniyasını yekunlaşdırıb.

**"Cəbhəçilər" təşəbbüs qrupunun namizədi Razi Nurullayev "Yeni Müsavat"a bildirib ki, lazım olan sayda imzalar toplanıb və MSK-ya təqdim olunub:** "İnşallah, qeydə alınma zamanı problem yaratmazlar. Namizədliyimiz rəsmi təqdim olunandan sonra geniş açıqlama ilə çıxış edəcəyik".

Azərbaycan Liberal Demokrat Partiyası (ALDP) tərəfindən namizədliyi irəli sürülən Fuad Əliyevin namizədliyinin müdafiəsi üçün də imzatoplama kampaniyası başa çatıb. Bu barədə "Yeni Müsavat"a ALDP mətbuat xidmətindən məlumat verilib. Məlumatda deyilir ki, 69 dairədə imzatoplama aksiyası keçirilib. ALDP Mərkəzi Seçki Qərargahı toplanan imzalarla bağlı bir daha dəqiqləşdirmələr aparıldıqdan sonra MSK-ya təqdim ediləcək.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Siyavuş Novruzov radikal gənclərlə bağlı təkzib verdi

## Deputat: "Radikal gəncliyin formalaşması barədə fikirlər səsləndirməmişəm"

**Hakim Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, deputat Siyavuş Novruzovun Fransada mühacir həyatı yaşayan hüquq müdafiəçisi Vidadi İsgəndərlinin atasının qəbrini təhqir edən gənclərlə bağlı səsləndirdiyi fikirlər bir sıra müzakirələr yaradıb. Bəzi mətbuat orqanlarının təqdimatından belə anlaşılır ki, deputat dolayısı ilə Azərbaycanda radikal gənclərin formalaşdığını bildirib.**



S.Novruzovun fikirləri bu cür təqdim edilib: "Mübarizəni kişi kimi aparmaq lazımdır. Opponentlərin ailə üzvlərini, qohumlarını çirkin mübarizəyə qatmaq olmaz. Sən Avropada gizlənmisənsə, bu sənə insanları və onların ailə üzvlərini təhqir etmək hüququ vermir. Sənə bu hüququ kim verib? Belə xoşagəlməz hadisələr bu səbəbdən baş verir. Kimlərinsə əsəbləri dözür, kimlərinki isə yox. Hüquq-mühafizə orqanları Vidadi İsgəndərlinin atasının qəbri ilə bağlı lazımi yoxlama aparacaq. Amma unutmaq lazım deyil ki, elə həmin Vidadi İsgəndərli Azərbaycan hüquq-mühafizə orqanlarının rəhbərlərini daim təhqir edir. O, müxtəlif vəzifəli şəxslər, siyasi partiyaların rəhbərləri və ictimaiyyətin nümayəndələri barədə ədəbsiz ifadələrdən istifadə edir. Əlbəttə, bütün bunlar onun tərbiyəsinin və mədəniyyətinin səviyyəsindən xəbər verir".

**Bununla bağlı "Yeni Müsavat"a açıqlama verən YAP funksioneri bu cür ifadələr işlətmədiyini söylədi:** "Mətbuat fikirlərimi doğru təqdim etməyib. Mən o cür deməmişəm ki, insanlar müxtəlif cür olurlar. Biri səbirli, dözümlü olur, digəri təhqirə dözmür, başqa cür addımlar atır. Ona görə də siyasətdə, əxlaqda, mənəviyyatda təhqir olmaz. Tənqid nə qədər istəyirsən et. Bununla əlaqədar fikirlərimi bu cür deməmişəm. Radikal gəncliyin formalaşması barədə fikirlər səsləndirməmişəm. Vidadi İsgəndərli gedib Fransada oturub. Oradan bu birisilərə nəyi var söyür. Adam var buna dözməyi bacarır, adam da var ki, özünə hakim ola bilmir. Bütün formalarda dini, milli adət-ənənələrin təhqir olunmasının əleyhinəyəm".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



Riçard Millz

## Ermənistan korrupsiya girdabında

**"Korrupsiya ABŞ-la Ermənistan arasında iqtisadi-ticarət münasibətlərini dərinləşdirmək sahəsində başlıca maneədir". "Jamanak" nəşri xəbər verir ki, bunu ABŞ-ın Ermənistandakı səfiri Riçard Millz bildirib.**

O qeyd edib ki, rəsmi İrəvan ABŞ-la iqtisadi-ticarət əlaqələrini dərinləşdirmək üçün çoxlu işlər görməlidir: "Korrupsiya nəticəsində bazarlar bağlanır, ədalətsiz rəqabət formalaşır. Korrupsiyanın bu növü daha çox narahatlıq yaradır. Çünki bundan ölkədəki siyasi və iqtisadi əlaqələri olan nüfuzlu şəxslər istifadə edir. Onlar ədalətsiz rəqabət mühitində öz maraqlarını bu yolla qoruyurlar. Bu isə nəticədə bərabər oyun şəraitini təmin etmir".

R.Millz vurğulayıb ki, korrupsiyanın belə təzahürü və hakimiyyətin ondan sui-istifadəsi Ermənistan üçün əsas çağırış olaraq qalmaqdadır: "Bu isə xarici sərmayələrin qoyulması və ABŞ-la ticarət əlaqələrinin dərinləşməsi üçün başlıca maneədir".



Anatoli Sidorov

## "Qarabağda müharibə olsa...."

**Əgər Qarabağda hərbi əməliyyatlar başlasa, KTMT hərbi bloku erməni tərəfinə kömək göstərməyəcək. Virtualaz.org xəbər verir ki, belə bəyanatla KTMT-nin birləşmiş qərargahının rəisi, general-polkovnik Anatoli Sidorov çıxış edib.**

"KTMT üzvü olan ölkələr üçün başlıca hərbi təhdidlər" mövzusunda keçirilən teleköprü zamanı general bildirib ki, qondarma "DQR" bu bloka üzv "ölkə" deyil. KTMT kollektiv müdafiə barədə müqaviləni Ermənistanla bağlayıb və deməli, ancaq İrəvan qarşısında konkret öhdəlikləri var. "Ermənistan vətəndaşları əmin ola bilərlər ki, zərurət yaransa, KTMT onları darda qoymayacaq" - general bildirib.

General Sidorov qeyd edib ki, Ermənistanla Azərbaycan arasında situasiya kifayət qədər gərgindir, amma o dərəcədə gərgin deyil ki, iki ölkə bir-birinin "paytaxtını tutmağa" başlasın. O, vaxtilə hər iki ölkənin "böyük sovet ailəsinin üzvü olduğunu, sülh və qarşılıqlı hörmət şəraitində yaşadığını" da xatırladıb.

General-polkovnik xatırladıb ki, KTMT bloka üzv olan bu və ya digər ölkənin cəlb olunduğu hərbi münaqişəyə qarışmaq səlahiyyətində deyil. Bunun üçün kömək barədə müraciət olmalıdır. NATO isə üzv ölkələrdən müraciət gözləmədən onlara hərbi dəstək verir. Sidorovun sözlərinə görə, bu heç də korrekt deyil və NATO üzvü olan ölkələrin suverenliyini pozur.



## Mirşahin Ağayevin yeni televiziyasında "köhnə" komanda

### Zoologiya İnstitutunun direktoru: "ANS istəsə də, həmin avadanlıqları oradan çıxara bilməz"

**Mirşahin Ağayev martın 5-də lisenziya alan "Real" TV üçün komandanı formalaşdırıb. TV-yə əsasən keçmiş ANS telekanalının əməkdaşlarını topladığı bildirilir.**

"Qafqazinfo" xəbər verir ki, "Real" TV-dən modern.az-a verilən məlumata görə, Mirşahin Ağayevin yeni komandasında fəaliyyəti dayandırılmış ANS telekanalının aşağıdakı əməkdaşları çalışacaq: Afət Telmanqızı, Ləman Ələşrəfqızı, Mahir Məmmədli, Səbinə Ağayeva, Lalə Nurəddinqızı, Orxan Məmmədli, Ziya Babayev, Azər Qarayev, Vüsalə Xanməmmədqızı, Xatirə Məmmədova, Mehman Rəsulov, Natiq Nailəoğlu, Ayşəm Rüstəmova.

Hələlik baş redaktor və redaktorlar müəyyən olunmayıb.

Onu da bildiriblər ki, "Real" TV layihəsi Mirşahin Ağayevə məxsusdur və Vahid Mustafayev bu layihədə yer almayacaq.

Eyni zamanda "Real" TV-nin ofisinin Əhməd Rəcəbli küçəsində yerləşdiyi məlum olub. 5 mərtəbəli binada yerləşən ofisdə son hazırlıq işləri görülməkdədir.




Ləğv edilmiş ANS Şirkətlər Qrupu prezidentinin mətbuat məsələləri üzrə müşaviri Mais Məmmədov azvision.az-a açıqlamasında Mirşahinin komandasında təmsil olunmayacağını bildirib. O vurğulayıb ki, Mirşahin Ağayev ona iş təklifi etməyib.

"Mənə təklif gəlməyib. Bu səbəbdən o komanda olmayacağam. Yəni "Real TV"də işləməyəcəm. Mənim orada nə işim var?"

TV-nin yaxın günlərdə yayıma başlayacağı bildirilir. Qeyd olunur ki, artıq texniki avadanlıqlar alınıb, kameraların bir hissəsi ofisə gətirilib, digərləri də gətiriləcək.

Bu arada məlum olub ki, ANS Zoologiya İnstitutunun bəzi ərazilərini boşaldıb.

Bu barədə APA-ya açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Zoologiya İnstitutunun direktoru, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru, dosent Elman Yusifov bildirib.

**ANS-in boşaltmadığı otaqların da qaldığını vurğulayan direktorun sözlərinə görə, həmin otaqlarda şirkətin əmlakı, avadanlıqları var:** "Bu təxminən 1000 kv.metrə yaxın ərazini əhatə edir. Ayrıca bir sahə isə aidiyyəti dövlət orqanları tərəfindən möhürlənib. Bu, artıq ANS-in iradəsindən asılı deyil, ANS istəsə də, həmin avadanlıqları oradan çıxara bilməz. ANS-in məskunlaşdığı bina Azərbaycan Milli Elmlər Akademiyasına, Zoologiya İnstitutuna məxsusdur. Amma ANS Əmlak Məsələləri Dövlət Komitəsi ilə müqavilə bağlamışdı, bizim binada icarə müqaviləsi əsasında fəaliyyət göstərirdi. Sonradan isə Dövlət Komitəsi həmin müqaviləni ləğv etdi və əmlak Zoologiya İnstitutuna qaytarıldı. Bina qaytarılmalı idi, lakin bu çox çətinliklə baş verdi. Hazırda 80 faiz ərazi Zoologiya İnstitutuna aiddir. Biz özümüz də çətin vəziyyətlə üzləşmişik. Fiziologiya İnstitutunun binası qəzalı vəziyyətə düşdüyü üçün onlar da bizim binaya köçürlər. Ona görə də bizim yaşayış sahələrinə çox böyük ehtiyacımız var".

# Əndazədən çıxan toy adətlərini inzibati yolla tənzimləmək təklifi

### **Fazil Mustafa:** "Bizdə şadlıq evlərinin əksəri məmurlara, oliqarxa məxsusdur, onlar toy biznesinin ölməsinə imkan verməz"

**Ötən həftə Özbəkistan prezidenti dünya mətbuatının gündəminə toylarla bağlı qəbul etdiyi yeni qərarla gəldi. Belə ki, virtualaz.org saytının məlumatına görə, prezident Şövkət Mirziyayev bəyanat yayaraq bildirib ki, baş nazir və müavinlərinin, nazirlər də daxil olmaqla, dövlət məmurlarının toy və ad günü ziyafətlərində iştirakı qadağandır. Həmçinin bəyanata əsasən Özbəkistanda toylarla ciddi reqlament tətbiq olunacaq.**



Mirziyayev baş nazirin və Daşkəndin icra hakiminin də iştirak etdiyi müşavirədə bildirib ki, o, məmurların düzgün işləmələri üçün hər cür şərait yaradıb və artıq onlardan xalqa ədalətlə xidmət etmələrini tələb etməyin vaxtı çatıb: "Nazirlərə, icra hakimlərinə və icra orqanlarının nümayəndələrinə toylarda iştirak etmək qadağan ediləcək. Əgər hansısa çayxananın qarşısında dövlət nömrəli maşın görsəm, həmin məmuru dərhal cəzalandıracam".

**Prezident deyir ki, korrupsiyanın kökünü kəsmək üçün dəbdəbəli toy məclislərinin keçirilməsinə və məmurların toylarda iştirakına qadağa qoymağa məcburdur. Onun sözlərinə görə, korrupsiya cəmiyyətin bütün təbəqələrinə sirayət edib və məmurlar arasında geniş yayılıb:** "Mənim özüm də daxil olmaqla, heç bir məmur ad günləri və toylarda iştirak etməyəcək. Yetər, o dövrlər artıq keçib. Bütün bunlar camaatı qıcıqlandırır, hiddət doğurur. Belə mərasimlər və toylar yüksək vəzifəli məmurların iştirakı olmadan keçiriləcək. Baş nazir bütün müavinləri ilə birlikdə toya gedir, bu başdan o başa düzülürlər... Sən o toyda 200 kiloqram ət bişirməkdənsə, kasıba əl tut ki, evini rəngləsin, ona televizor al".

Prezident bildirir ki, bundan sonra toyların "ciddi reqlamenti olacaq". Toy sahiblərinə toya maksimum 120 qonaq çağırmağa icazə veriləcək.

"Hünəriniz var, etiraz edin, cəzalandıraram", - deyə prezident zaldakı məmurlara xəbərdarlıq edib.

Prezident deyib ki, toylar bundan sonra gündüz vaxtı keçiriləcək. Günorta 2-də, 3-də bitəcək. Toyda yalnız gənclər iştirak edəcək, yaşlılar nişanda iştirak edəcək. Bəzi bölgələrdə, məsələn, Əndicanda toyla yanaşı, "səhər plovu" deyilən adət də var. Ora da yüzlərlə adam çağırılır. Prezident deyir ki, həmin adət ləğv olunacaq. Mirziyayev axşam toy mərasimi keçirən şadlıq evlərini bağlamaqla hədələyib.

**Daşkənddə keçirilən toylara toxunan prezident deyib ki, dörd qızı olan daşkəndli onlara toy eləmək üçün gərək özünü assın:** "İmkanı yoxdur, amma borca girir, öz sağlamlığına fikir vermir, yalnız qızlarının toyu üçün pul yığır. Gərək hamının qarnını doyursun, qızına mebel alsın. Biz bu məsələni təşviqat yolu ilə həll etmək istəyirdik, amma alınmadı. Bizə belə toylar lazımdı?"

**Prezident hesab edir ki, dəbdəbəli mərasimlər yığışdırılsa, korrupsiya da azalar:** "Əgər toyların keçirilməsi qaydalarını sərtləşdirsək, korrupsiya-filan da olmaz. Hamı razı qalar, ədalət bərqərar olar. Hamı eyni cür toy edər. Əgər rəhbər işçilərdən kimsə - istər prokuror olsun, istər vergi işçisi, istərsə də gömrükçü - bu qaydanı pozsa, həmin gün həbs etdirəcəm. Baş nazirin müavini belə dəbdəbəli toyda iştirak etmək üçün pulu hardan alır? Bir az araşdırsan, məlum olacaq ki, oğurluq puldu".



Prezident deyir ki, vətəndaşlar övladlarını evləndirmək, qızına cehiz pulu düzəltmək üçün 20 min dollar pul yığmaq naminə Rusiyaya işləməyə gedir.

Xatırladaq ki, bundan əvvəl Tacikistanda toylarla bağlı ciddi məhdudiyyətlər tətbiq olunub. Qanuna görə, toya 150-dən artıq adam çağırmaq qadağandır, habelə toyda normadan artıq yemək verənlər cərimələnir, yeməklər müsadirə olunur.

Beləliklə, Özbəkistan prezidentinin bu qadağası ölkəmizdə də toylarda israfçılıq və onun necə aradan qaldırılması ilə bağlı məsələni yenidən gündəmə gətirmiş oldu. Məlumdur ki, keçmişdə Azərbaycanda toy məclisi təşkil etmək yeni evlənənlərə kömək məqsədi daşıyırdı. Xüsusən də rayon və kəndlərdə qohum-əqrəbalar toy sahibinin evinə toplaşar, yeni evlənənlər üçün nəyin çatışıb-çatışmadığını müəyyənləşdirər və ümumilikdə bu məsələni həll etməyə çalışardılar. Lakin ölkəmiz müstəqillik qazandıqdan sonra toylarımızın mahiyyəti tamamilə dəyişməyə, dəbdəbəli keçirilməyə başladı. Artıq toylar deyil, xınayaxdı mərasimləri də dəbə düşüb ki, bu da ailələrə ciddi ziyan vurur. Əvvəllər də xınayaxdı məclisləri keçirilərdi. Lakin dəbdəbəsiz, sadə şəkildə. Bunun üçün ciddi xərc də tələb olunmurdu. Çünki əsasən xına və şirniyyatdan istifadə olunurdu, ən əsası isə məclis evlərdə keçirilərdi. Bu gün isə xınayaxdı məclisləri az qala toy mərasimlərini də geridə qoymağa başlayıb. Bahalı restoranlarda, hətta hotellərdə belə xınayaxdı məclisləri təşkil edilir. Bunun üçün xüsusi studiyalar da fəaliyyət göstərir. Araşdırmalar onu göstərir ki, bu studiyalar bəzən bir gündə 3-4 xınayaxdı məclisləri həyata keçirirlər. Xınayaxdı studiyalarını, mərkəzlərini açanlar isə əksər hallarda tanınmış müğənnilər, rəqqasələr, aktrisalar, hətta aparıcılardır.

Bir neçə il öncə hökumət yas mərasimlərində ehsan süfrəsinə müdaxilə etdi və ölkənin bir çox şəhər və rayonlarında israfçılıq zamanla aradan qalxmağa başladı. O ərəfədə insanlar şadlıq evlərindəki menyuya da "əl gəzdiriləcəyini" düşünürdü. Lakin göründüyü budur ki, israfçılıq, dəbdəbə xəstəliyi nəinki aradan qalxır, əksinə, getdikcə daha çox adiləşməyə doğru gedir.

**Maraqlıdır, Özbəkistan prezidentinin həyata keçirdiyi administrativ üsulla ölkəmizdə də toy və digər məclislərdə israfçılığı aradan qaldırmaq mümkündürmü?**

**Millət vəkili Fazil Mustafa mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb. O qeyd edib ki, inzibati üsulla ölkəmizdə əndazədən çıxan toy adətlərini yığışdırmaq mümkün deyil:** "Çünki Azərbaycandakı bugünkü harınlıq kimi görünən toylar az qala bizim milli-mənəvi dəyərlərimizə çevrilib. Sanki israfçılıq mədəniyyət nümunəsidir. Necə ki, bəziləri ziyarətgahlara başını sürtür, elə bilir ki, bu zaman başımıza bir kəramət, elm daxil olacaq, eləcə də cəmiyyətimizdə toylarımıza münasibət də bu cürdür. Sanki 30 cür yemək olmasa, toy olmaz. Düşünürəm ki, bu cür dəyərlərdən imtina etmək üçün inzibati yollar seçilməyəcək. Cəmiyyətin maarifçilik, düşüncə tərzi aşağıdır. Həm də bu məsələ təkcə zənginliklə bağlı deyil. Cəmiyyətdə yoxsullar da eyni cür şöhrətpərəstlik duyğusu yaşayır.

Yaslarda da yemək verilməsi ilə bağlı məcburiyyət yoxdur. Kim deyir ki, yasda mütləq yemək verilməlidir? İmkanı olmayanda da düşünür ki, "belə etməsəm mənə nə deyərlər?" Ona görə də hətta inzibati üsulla bu məsələni həll etməyə çalışsalar, kimsə hansısa məmurun cibinə pul basıb deyəcək ki, buna "göz yumsun". Düşünürəm ki, Özbəkistan prezidentinin toylarla bağlı atdığı addım bu ölkə üçün xarakterikdir. Özbəkistanda bu cür məsələlərin cəmiyyətə izah olunmasında problem yaşanmır.

Ölkəmizdə isə bu məsələlərin həlli istiqamətində görülən işləri yetərsiz sayıram. Məsələn, yaslarla bağlı qadağanın Naxçıvanda və digər rayonlarda icra edilməsini gördük, lakin bütün ölkəyə şamil edilmədi. Bir məsələni də qeyd edim ki, bizdə şadlıq evlərinə çox böyük vəsaitlər qoyulub, onların da əksəriyyətinin rəhbəri məmurlar, böyük kapital sahibi olan insanlardır. Onların hansı bu cür administrativ üsulun qəbul edilməsinə imkan verər?"

❑ **Xalidə GƏRAY, Musavat.com**

YENİ MÜSAVAT
N 53 (6942) 7 mart 2018

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# "Sürünən müharibə" gerçək müharibəyə keçid ərəfəsində

## Ermənistanda və Azərbaycandakı seçkilər sonrası dönəmin mühüm gözləntisi; **rusiyalı politoloq Aleksandr Duqin:** "Qarabağ kimi problemin uzanması istənilən an birbaşa toqquşmaya gətirə bilər..."

**Martın 2-də işğalçı Ermənistan formal da olsa özünə növbəti prezidenti seçdi. Ona görə "formal" ki, bu satellit ölkəyə görə əsas qərarlar İrəvanda yox, Moskvada verilir. Lakin siyasi müşahidəçilər Ermənistandakı seçkilərdə qərbyönlü kimi tanınan adamın - seçkiyədək Böyük Britaniyada səfir işləmiş Aram Sərkisyanın hələ də bu dövlətin vətəndaşlığını daşımasına, bütövlükdə hakim Sərkisyan rejiminin son vaxtlar Qərbə reveranslarına məxsusi diqqət çəkirlər.**




Qərb-Rusiya münasibətləri isə məlum olduğu kimi, kəskinləşən xətlə davam edir. Bu üzdən İrəvanın bu kimi gedişləri yəqin ki, Moskvada ciddiyə alınır və müvafiq nəticələr çıxarılır. Rusiyanın öz işğal ortağı Ermənistana təzyiq rıçaqları isə qədərindən də çoxdur. Söhbət əlbəttə ki, öncəliklə Dağlıq Qarabağ münaqişəsindən gedir.

*****

Azərbaycanda isə aprelın 11-də prezident seçkiləri keçiriləcək. Bu seçki ilə bağlı Rusiyanın gözləntiləri kifayət qədər aydındır. Bakı, hər halda, xarici siyasətdə balansa üstünlük verməkdə davam edir.

**"Azərbaycanda 11 apreldə keçiriləcək prezident seçkilərində Qərb və Rusiya maraqları toqquşmayacaq". Bu nu minval.az-a müsahibəsində rusiyalı tanınmış filosof və ideoloq, Kremlin "danışan dil"lərindən biri kimi təqdim edilən Aleksandr Duqin söyləyib.**

"Azərbaycanda çox stabil hakimiyyət var. Bu siyasət Heydər Əliyevin dövründə qurulub. İlham Əliyev isə öz növbəsində sosial, siyasi, iqtisadi sistem yarada bilib və onu heç nə təhdid etmir. Mən rusiyayönlü və qərbyönlü qüvvələr görmürəm. İlham Əliyevin ətrafında birləşən azərbaycanyönlü qüvvələr var ki, onlar da balansı müəyyən edirlər. Bu qüvvənin düşüncəsi Azərbaycanın suverenliyinin gücləndirilməsidir. Bu məsələdə sizin ölkədə konsensus mövcuddur. Fikrimcə, Azərbaycandakı seçkinin nəticəsi Rusiyadakı kimi artıq bəllidir", - deyə o bildirib.

**Duqin Qarabağ konfliktinin sülh yolu ilə həll edilə biləcəyini söyləyib:** "Bəzən analitiklər arzuolunanı reallıq kimi deyirlər. O fikirlə razıyam ki, Qarabağda müharibə mümkündür. Müharibə təhdidi istənilən dövlətin siyasətində daimi faktordur. Qarabağ kimi problemlərin həll edilməməsi istənilən an birbaşa toqquşmalara gətirə bilər. Bu problemin sülh yolu ilə həllinə gəlincə isə, bəli, belə bir həll mümkündür. Məncə, münasibətlərin normallaşdırılmasına işğal edilmiş 7 rayondan beşinin qaytarılması yardım edə bilər. Bundan sonra situasiyanın həlli başlayacaq. Eyni zamanda bu, Ermənistan-Azərbaycan münasibətlərində blokadanın ortadan qalxmasına yardımçı olacaq. Əgər Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının strukturunda yer alsa, o zaman müharibə təhdidi azalacaq və sülh yolu ilə həll yaxınlaşacaq. Məncə, 2018-ci ilin sonlarına doğru Qarabağ probleminin həllində ciddi irəliləyişlərin olması barədə böyük şanslar var".

**Politoloq ABŞ-ın Rusiyaya qarşı məlum silah embarqosunun mümkün nəticələrindən də söz açıb. Onun fikrincə, dünyada baş verən proseslər birqütblüyün bitib, çoxqütblüyə keçidin formulu kimi qələmə verilir.** "Əgər çoxqütblülük prizmasından məsələyə baxılsa, o zaman istənilən ölkə arzu etdiyi yerdən silah ala bilər. Çoxqütblü dünyaya keçid prosesi də asan deyil. Dünya siyasətinin bu cür balans dəyişikliyi qanlı müharibələr hesabına olur. Suriyadakı uğurlardan sonra Rusiya özü haqqında böyük qütblərdən biri kimi bəhs edir. Rusiya Prezidenti Vladimir Putinin bir müddət öncəki çıxışı da buna həsr edilmişdi. Əlbəttə ki, bu, müəyyən reaksiyalara səbəb olur. Ona görə ki, Rusiya artıq ikinci lider kimi yox, çoxqütblü dünyanın qütblərindən biri kimi çıxış edir. Rusiya çox ölkələrin suveren siyasət yürütmə tabularını dəyişdirir. Ona görə də rus silahlarını əldə etmək istəyənləri sanksiyalarla təhdid edirlər. Burada söhbət həm də Rusiyaya dost olan Azərbaycandan gedir", - deyə o əlavə edib.

*****

Sözsüz ki, həlli uzanan Qarabağ konflikti fonunda durumda Azərbaycana öz hərbi və iqtisadi qüdrətini artırmaqdan və işğalçı ölkə üzərində əzici üstünlüyü təmin eləməkdən savayı yol qalmır. Çünki İrəvan Dağlıq Qarabağ məsələsində beynəlxalq hüquqla bir araya sığmayan destruktiv, maksimalist mövqe tutmaqda davam edir. Məsələdə bir qayda olaraq daha radikal mövqe tutan erməni lobbisinin pullarından asılı olan Ermənistan rəhbərliyinin daha radikal mövqeyə köklənməsi sövq-təbii münaqişə zonasında müharibə riskini bir az da artıracaq. Demək, hərbi faktor xeyli dərəcədə önə çıxmış olacaq.

*****

Bu arada Azərbaycanın Nazirlər Kabinetinin 2017-ci ildə fəaliyyəti haqqında açıqladığı hesabatda hərbi sahə üzrə göstəricilərimiz də əksini tapıb. Belə ki, ötən il Azərbaycan ordusunun qoşun döyüş sursatları üzrə ehtiyatlarının yaradılması məqsədilə yerli sənaye müəssisələrindən və xarici ölkələrdən müxtəlif təyinatlı müasir döyüş texnikası, eləcə də digər hərbi məhsullar alınaraq Silahlı Qüvvələrin istifadəsinə verilib, hərbi texnika və avadanlıqların təmiri və təkmilləşdirilməsi həyata keçirilib.

Sənəddə qeyd olunub ki, uzun müddət istifadədə olan, texniki tələblərə cavab verməyən, istifadəyə yararsız silahlar, döyüş texnikası və digər hərbi təyinatlı vasitələr istismardan çıxarılıb və yeniləri ilə əvəzlənib. Ordunun silah arsenalının daha da gücləndirilməsi üçün müasir silahların, qabaqcıl texniki vasitələrin alınması istiqamətində işlər davam etdirilir. Hesabatda o da qeyd olunub ki, keçən il müdafiə xərclərinə dövlət büdcəsinin 15 faizi həcmində vəsait yönəldilib ki, bu da 2016-cı illə müqayisədə 429 milyon manat və ya 19.6 faiz, büdcə xərclərinin tərkibində isə 2016-cı illə müqayisədə 2.6 faiz çoxdur.

Azərbaycan sübhəsiz ki, iqtisadi-maliyyə durumu ağır olan işğalçı ölkəni silahlanma yarışına cəlb eləməklə həm də onun iqtisadi durumunu daha da ağırlaşdırmaq, kütləvi köçü gücləndirmək hədəfi güdür. Bu fonda təmas xəttində düşmən tərəfin canlı itkilərinin get-gedə artması Ermənistana daha bir mesaj olmalıdır ki, "sürünən müharibə" günün birində əsl müharibəyə də keçə bilər...



# Azərbaycanın hərb naziri ön cəbhədə

**Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhə bölgəsində yerləşən ön xətt bölmələrdə olublar. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Hərbi hissə ərazisində sabiq prezident Heydər Əliyevin abidəsini ziyarət edən müdafiə naziri daha sonra müdafiənin ön xəttindəki bölmələrdə olaraq üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib. Əməliyyat şəraiti ilə tanış olan general-polkovnik Z.Həsənov birləşmələrin və hərbi hissələrin döyüşə hazırlıq vəziyyətini yoxlayıb.

Müdafiə Nazirliyinin rəhbərliyi qoşunların döyüş qabiliyyətini, maddi-texniki təminatını, silah-sursat və hərbi texnika ilə təchizatını, həmçinin şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib. Hərbi qulluqçular müdafiə nazirinə müraciətdə işğal altında olan torpaqların tezliklə azad edilməsinə hazır olduqlarını bildiriblər.

YENİ MÜSAVAT
N 53 (6942) 7 mart 2018

# Azərbaycana qarşı olan “5 Ulduz” lar...

## TAP-ın düşmənləri İtaliyada layihənin tikintisini əngəlləyə bilərmi?

**Azərbaycanın həyata keçirdiyi Cənub Qaz Dəhlizi layihəsinin bir parçası olan TAP boru xəttinin İtaliyadakı hissəsinin tikintisinə ən böyük əngəl törədən bu ölkənin rusiyameylli “5 Ulduz” Partiyası parlament seçkilərində uğur qazanaraq mövqelərini möhkəmləndirib. Seçkilərdə ikinci yeri tutan “5 Ulduz” hərəkatı 30 faiz səs toplayıb.**

Xatırladaq ki, şoumen Beppe Grillonun rəhbərlik etdiyi “5 Ulduz” hərəkatı və onun yaratdığı “No TAP” ictimai komitəsi illərdir, Azərbaycanın bu layihəsi əleyhinə təbliğatla məşğuldur. Onlar Avropaya uzanacaq qaz kəmərin tikintisinin çoxillik zeytun ağaclarına ziyan vuracağını bəhanə gətirərək etiraz aksiyaları keçirirdilər. Bununla da layihənin xeyli vaxt və maliyyə itkisi ilə üzləşməsinə səbəb oldular. Qeyd edək ki, “5 Ulduz” hərəkatının və onun lideri Beppe Grillonun Rusiya ilə əlaqələri barədə əvvəllər yazıb. Ümumiyyətlə, İtaliya Avropada rusiyameylli qüvvələrin siyasətdə ən güclü olduğu ölkə hesab oluna bilər. Bu ölkədə “5 Ulduz” hərəkatı ilə yanaşı ultrasağçı “Şimal Liqası” hərəkatı da açıq-aşkar rusiyameylli hesab edilir.

Bəs görəsən, bu partiyanın seçkilərdə ikinci yeri tutması onun TAP kəmərinə qarşı fəaliyyətini də gücləndirə bilərmi? Layihənin icrası ilə bağlı hər hansı ciddi problem yaşana bilərmi?




**“Yeni Müsavat”ın sualını cavablandıran Elxan Şahinoğlu “5 Ulduz” Partiyasının Rusiya tərəfindən dəstəklənməsinə toxunaraq, bunun səbəblərindən danışdı:** “”Rusiya son zamanlar Avropadakı populist partiyaları, eləcə də sağ radikalyönümlü partiyaları dəstəkləyir. Çünki onlar Rusiyaya qarşı sanksiyaların yumşalmasını tələb edirlər. Hətta bəziləri deyir ki, Krımı tanımaq lazımdır. Ona görə də Rusiya bu partiyaları, o cümlədən “5 Ulduz” Partiyasını dəstəkləyir".

**Politoloq “5 Ulduz” Partiyasının parlamentdə daha böyük çoxluqla təmsil olunmasının TAP layihəsinin tikintisinə mane olacağını düşünmür:** “Bu layihə elə bir mərhələyə gəlib çıxıb ki, artıq onun qarşısını almaq mümkün deyil. İtaliya hökuməti bu layihəyə dəstək verir, bu ölkə Avropa İttifaqına kreditlər ayırıb. Bir ara zeytun ağaclarının başqa bir bölgəyə daşınmasının əleyhinə müəyyən qüvvələr aksiyalar keçirməklə layihəyə mane olmağa çalışdılar. Ancaq ağaclar köçürüldü, heç bir problem yaşanmadı. Ona görə həmin aksiyalar da bir nəticə vermədi. Bundan sonra tikinti işləri xeyli irəliləyib. Bu mərhələdən sonra da artıq geri dönüş mümkün deyil. Mən ”5 Ulduz" Partiyasının TAP layihəsini əngəlləyəcəyini düşünmürəm. Çünki bu layihə ən çox İtaliyanın özünə lazımdır, İtaliya özü buradan qazanclı çıxacaq. Ekologiya məsələsini də ortaya atmaqla əslində onlar layihənin vaxtını uzatmaq, Rusiya boru xəttinin tikintisinə dəstək vermək məqsədi daşıyırdılar. Ancaq TAP hazırda elə bir mərhələdədir ki, bu layihəni dayandırmaq mümkün deyil".

**ADA Universitetinin Xəzər Enerji və Ətraf Mühit Mərkəzinin direktoru Elnur Soltanov da “Yeni Müsavat”a danışarkən, TAP-ın tikintisinin əngəllənməsinin mümkün olmadığını vurğuladı:** “İtaliyada koalisiya hökuməti olacaq və ”5 Ulduz" Partiyasının bu koalisiyada yer alıb-almayacağı bilinmir. Ancaq bütün hallarda TAP-ın əleyhinə olan bir partiyanın daha güclü olması yaxşı bir hadisə sayılmaya bilər. Məsələyə daha fundamental baxsaq, bu boru xəttini dəstəkləyən partiyaların da parlamentdə ümumi təmsilçi sayı arta bilər. Bu məsələdə ümumi güclər balansına baxmaq lazımdır. TAP-ın reallaşmasını istəməyən bir partiyanın güclənməsi, bu istəyənlərin güclənməməsi anlamına gəlmir. Ümumi güc balansı yenə də bənzər halda qala bilər. Bir partiyanın İtaliya üçün, ümumilikdə Avropa İttifaqı üçün strateji olan bir proyekti veto etmək gücü məhdud olacaq. Bu partiyanın Rusiyaya meylli olub-olmaması spekulyasiya mövzusudur. Ancaq prinsip etibarilə Rusiya ilə Cənub Qaz Dəhlizi mövzusunda prinsipcə anlaşma əldə edilib. Artıq Rusiya buna qarşı deyil. TAP boru xəttinin İtaliyaya çıxışında problemlərin varlığı boru xəttini əngəlləməkdən daha çox, konsorsium üzvləri üçün layihənin iqtisadi və siyasi mahiyyətini artırır. Nəticə etibarilə hansısa partiyanın bu işə qarşı çıxması regional hökumətə ediləcək köməyin miqdarını artıra bilər, əlavə bir neçə parkın salınmasına gətirib çıxara bilər, enerji siyasətində kiminsə marağını bir qədər də artıq nəzərə alınmasına səbəb ola bilər. Etiraz əngəlləməkdən ziyadə, iqtisadi-siyasi maliyyəti artıracaq. Ancaq bu strateji ölçüdə olmayacaq. Bu mərhələdən sonra artıq layihənin əngəllənməsi mümkün deyil".

❑ **Nərgiz LİFTİYEVA,**
**“Yeni Müsavat”**

# Türkiyə və ABŞ arasında iplər daha da gərildi

## Pentaqonun PKK silahlısına “general” deməsi Ankaranı qəzəbləndirib, Türkiyə Suriya ərazisində 170 min nəfərlik çadır düşərgələri qurur

**Türkiyə Suriyada 170 min nəfərlik qaçqın düşərgəsi quracaq. Bu barədə martın 6-da AKP-nin qrup toplantısında çıxış edən partiya sədri və prezident Rəsəb Tayyib Ərdoğan açıqlama verib. Türkiyə prezidenti deyib ki, düşərgələr Suriyada 2016-2017-ci illərdə “Fırat Kalkanı” əməliyyatı zamanı azad edilmiş Azez-Cerablus arasındakı bölgədə və İdlib əyalətində qurulacaq.**

Artıq Türkiyənin “Kızılay” və Fövqəladə Hallar Təşkilatı (AFAD) çadır düşərgələrinin qurulacağı Azez, Elbil, Tuqli, Tel Effer, Naddah, Bardaqlı və Maşad Rufi rayonlarında çadırlar qurmağa başlayıb. Çadır düşərgələri Afrin əməliyyatının gedişində əyalət mərkəzinə hücum zamanı yarana biləcək qaçqın axınını yerləşdirmək məqsədilə qurulacaq.

Ərdoğan bildirib ki, hazırda Afrində Cinderes rayonunda əməliyyatlar davam edir. Yaxın zamanlarda adıçəkilən rayon mərkəzi mühasirəyə alınacaq. Eyni zamanda o, əlavə edib ki, Afrin əməliyyatının bundan sonrakı hissəsi sürətlə davam edəcək.

Bu arada Ankara və Vaşinqton arasında Afrin və Suriya kürdləri ilə bağlı yaranmış gərginlik davam edir. Türkiyə Xarici İşlər Nazirliyinin rəsmi sözçüsü Hami Aksoy ABŞ Müdafiə Nazirliyi sözçüsünün Afrində savaşan kürd silahlılarının lideri haqda “general” ifadəsini işlətməsini “boş-boş danışmaq” adlandırıb. Aksoy bildirib ki, martın 19-da Türkiyə XİN rəhbəri Mövlud Çavuşoğlu amerikalı həmkarı Reks Tillersonla görüşəcək.

Qeyd edək ki, bir gün əvvəl Pentaqon sözçüsü Robert Manninq PKK liderlərindən biri, “Mazlum Kobani” ləqəbli Fərhad Abdi Şahini nəzərdə tutaraq “General Mazlum” deyib. Bu ifadə Türkiyədə ciddi etiraz doğurub.



Eyni zamanda ABŞ Müdafiə Nazirliyi bəyan edib ki, Türkiyənin apardığı Afrin (Zeytun budağı) əməliyyat səbəbi ilə Suriyanın şərqində İŞİD-ə qarşı aparılan hərbi əməliyyatlarda “əməliyyat ləngliyi” baş verir. Pentaqon bəyan edib ki, bunun əsas səbəbi əsas qüvvəsinin YPG-nin təşkil etdiyi “Suriya Demokratik Qüvvələri”nin çoxlu sayda silahlısı Fəratın şərqindən çəkilərək Afrinə gedib. Pentaqon sözçüsü Robert Manninq keçirdiyi mətbuat konfransında bildirib ki, sözügedən ləngimə SDQ-nin bəzi əməliyyatlarını dayandırıb. Ancaq koalisiya aviasiyası İŞİD-ə qarşı bombardmanları davam etdirir, İŞİD-dən geri alınan ərazilər müdafiə olunur. ABŞ ordusunun təmsilçisi bildirib ki, kürdlər İŞİD-lə mübarizəni tərk etməsinə şahid olub. O, bu savaşçıların böyük hissəsinin “ehtimal ki” Afrinə getdiyini deyib.

“Reuters” agentliyinə açıqlama verən bir başqa amerikalı rəsmi isə son iki həftədə yüzlərlə SDQ döyüşçüsünün Fərat vadisinin mərkəzindəki döyüş mövqelərini tərk etdiyini bildirib. Ehtimal olunur ki, bu döyüşçülərin böyük hissəsi amerikalıların dediyi kimi, Afrinə yollanıb. Çünki hazırda Afrinin bir hissəsi kürdlərdən təmizlənib və Türkiyə ordusu sürətlə irəliləyir. Kürdlərin indi dəstək qüvvələrə ehtiyacı var və məlumdur ki, bu səbəbdən də cəbhənin digər bölgələrindən silahlılar Afrinə gedir.

Ancaq bu faktın amerikalılar tərəfindən açıq şəkildə dilə gətirilməsi şübhə yaradır. Məsələ ondadır ki, bu məlumat özü hərbi sirr hesab olunur. Yəni Suriyanın şərqindən yüzlərlə kürd döyüşçüsünün İŞİD-lə müharibə cəbhəsini tərk etməsi ilə bağlı açıqlamanı hər kəs oxuyur. Belə bir ciddi hərbi sirri amerikalılar niyə açıqlamaq ehtiyacı duyublar?

Aydın məsələdir ki, bu açıqlama həm də məsuliyyəti Türkiyənin üzərinə atır. Vaşinqton dəfələrlə bəyan edib ki, Suriyanın şimalında və şərqində İŞİD-ə qarşı mübarizədə əsas dəstəkçisi və ya başqa sözlə, quru əməliyyat qüvvələrini kürdlər təşkil edir. Vaşinqton məhz bunu əsas gətirərək kürdləri silahlandırıb, onlara təlim keçib. İndi isə Afrin əməliyyatı səbəbi ilə kürdlər İŞİD-lə mübarizə cəbhəsini boş qoyaraq geriyə - Afrinə doğru çəkilirlər. Burada bir ehtimal da budur ki, kürdlər bunu bilərəkdən edərək amerikalıları Türkiyəyə təzyiq etmək üçün bu addımı atsınlar. İstənilən halda bu açıqlama və kürdlərin həqiqətən İŞİD cəbhəsini boş buraxması məsuliyyəti Türkiyənin üzərinə yükləmək cəhdidir. Yəni bu günlərdə İŞİD Deyr əz-Zor və digər bölgələrdə yenidən fəallaşsa və ya hansısa bölgəni ələ keçirsə, bu, kürdlərin cəbhəni buraxıb Afrinə köməyə getməsi ilə izah olunacaq, dolayısı ilə Türkiyənin Afrin əməliyyatı əsas səbəb kimi göstəriləcək.

Məsələ ondadır ki, Vaşinqton ötən həftə rəsmi şəkildə bəyan edib ki, ABMT TŞ-nin Suriyada atəşkəs qərarı Afrinə də şamil olunmalıdır. Ankara isə buna etiraz edir, Afrində terrora qarşı mübarizə aparıldığını, terrorçuların isə Suriya atəşkəsinə daxil olmadığını bildirir. Görünür ki, Türkiyənin Afrin əməliyyatını dayandırması üçün təzyiqlər artır. Ankaranın Afrini tamamilə ələ keçirənədək bu təzyiqlərə tab gətirib-gətirməyəcəyini indidən demək çətindir.

Yeri gəlmişkən, martın 16-da Türkiyə, İran və Rusiya diplomatları Qazaxıstanın paytaxtı Astanada görüşəcəklər. Bu görüşün əsas məqsədi 3 ölkə prezidentinin apreldə İstanbulda keçiriləcək sammitinə hazırlıq məqsədi daşıyır. Məlum olduğu kimi, hazırda Afrin əməliyyatı və Türkiyənin Suriyanın şimalındakı fəaliyyətləri İran və Rusiya tərəfindən məmnun qarşılanmır.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**“Yeni Müsavat”**

**Martın 6-da Bakı Narkoloji Mərkəzində baş verən yanğının səbəbkarı həbs edilib. "Alkoqol qəbulu nəticəsində psixi və davranış pozuntuları" diaqnozu ilə müalicə alan Bakı şəhər sakini Məhəmməd Məmmədov martın 3-də həmin cinayətdə şübhəli şəxs qismində tutulub. İlkin dindirmə zamanı cinayəti törətdiyini etiraf edən Məhəmməd Məmmədov ailə üzvlərinin ona qərəzli münasibətinə etiraz əlaməti olaraq və Narkoloji Mərkəzdə müalicə almaq istəmədiyinə görə intihar etmək qərarına gəldiyini bildirib. Bu məqsədlə martın 2-si saat 06 radələrində qaldığı palatada yorğana bürünərək onu alışqanla yandırdığını, alov gücləndikdə özünü öldürmək niyyətindən daşınıb, yanan yorğanı çarpayısının üstünə atdığını, alovun digər palatalara keçməsindən qorxduğu üçün şöbənin qapısı açılan kimi mərkəzi tərk etdiyini göstərib.**

# 25 nəfərin qatili alkoqoliksə...

## Onların psixoloji durumu ilə bağlı bilinməyənlər: özlərini necə aparır, müalicə prosesində nələr edirlər - dosye

Qeyd edilənlər şahid ifadələri, hadisənin başvermə mexanizmi və mərkəzdə olan müşahidə kameralarının görüntüləri ilə təsdiqlənib.

### Onlar niyə spirtli içkidən asılıdılar?

"Yeni Müsavat" isə gündəmin əsas mövzusu olan alkoqoliklərin psixoloji durumuna nəzər salmağa çalışıb. Biz onları xəstə kimi qəbul etməliyikmi? Alkoqoliklər narkomanlardan fərqli olaraq daha dözümlü psixologiyaya sahibdilər? Bir sözlə, yuxarıda yazdığımız affekt halın yaranmasına səbəb faktorlar hansılardır?

Spirtli içkidən asılılıq nədir? İnsanın spirtli içkiyə asılılıq dərəcəsində bağlı olmasına alkoqolizm deyilir. Alkoqolizm problemi olan şəxs isə alkoqolik olaraq tanınır. Alkoqolik alkoqolun ona zərər verdiyini bildiyi halda içməkdən imtina edə bilməyən şəxsdir. Valideynlərində alkoqolizm problemi olan uşaqlarda bu xəstəliyin görülmə faizi isə spirtli içki istifadə etməyənlərlə müqayisədə daha yüksəkdir.

Spirtli içkidən istifadə etmə səbəbləri: ümumiyyətlə, spirtli içki içmənin səbəblərindən ən önəmlisi zövq almaq, hissləri düzəltmək, stressdən qurtulmaq və alkoqolik həyat tərzidir. Alkoqolikin içmək üçün hər zaman bir səbəbi var. Xoşbəxtlik, gərginlik, kədər və sair. İçmə fürsətləri sonsuzdur. Tətil, parti, ad günü, dost toplantısı kimi. Alkoqolizm irəlilədikcə problemlər artır, təkbaşına içməyə başlayır, gizlicə içir, şüşələri gizlədir, problemi gizlətməyə çalışır. Peşmanlıq, günahkarlıq hissi keçirir, bunu azaltmaq üçün daha çox içirlər. Spirtli içki içdikcə depressiya da artır, depressiya artdıqca daha çox spirtli içki qəbul edirlər. Yuxu keyfiyyəti aşağı düşür, gecə oyanır və krizə girirlər. Ağrılar və nəfəs darlığı artır, bunu aradan qaldırmaq üçün daha çox içirlər.

### Onları belə tanıyaq - əlamətləri

**Alkoqolizmin fiziki əlamətləri:** Qırmızı burun, ovuc içi qızarması, gözün kornea təbəqəsində yağ halqası, əldə tremor, siqaret yanıqları, göyərtilər, əl və ayaqlarda qismən iflic.

**Alkoqolizmin sosial nəticələri:** Boşanma, tərk edilmə ev-iş problemləri, yol qəzaları, hüquqi problemlər, həbs, türmə.

**Alkoqolizmin bədənə verdiyi zərərlər:** Qaraciyər serrozu, korluq, kardiyomiyopati (ürək genişlənməsi), yüksək təzyiq, əzələ yırtığı, qan xəstəlikləri, pankreas iltihabı, iflic və beyincik zədəsi nəticəsində müvazinət itkisi.

**Alkoqolizmin psixoloji nəticələri:** Paranoya kimi əqli xəstəliklər, depressiya, intihar, yaddaş itkisi və erkən xərifləmə.

**Alkoqolizm müalicəsi:** Həddən artıq sərxoşluq zamanı şok durumu ortaya çıxmasa, özəl müalicə lazım gəlməz. Amma xəstənin qusdurulması və tədbir məqsədilə xəstəxanaya aparılması doğrudur. Əgər şok ortaya çıxarsa, xəstə dərhal xəstəxanaya aparılmalıdır.

### Müalicənin fərqli üsulları

**Xronik alkoqolizmdə isə durum hər zaman ciddidir və müxtəlif üsullarla müalicə edilməlidir:**

**1. Dərman müalicəsi:** dərman spirtli içkidən istifadə edil-



diyi halda son dərəcə qüvvətli təsirlər meydana gətirir. Bu formada spirtli içkinin ona təsir etmədiyinə inanan insan içkidən soyuyur. Dərmanın təsirli olması üçün sistemli olaraq hər gün qəbul edilməsi vacibdir. Dərman müalicəsinin uyğun bir klinika və səlahiyyətli həkim nəzarətində edilməsi lazımdır.

**2. Spirtli** içkinin pəncəsindən qurtulanların bir çox ölkədə qurduğu alkoqoliklərə yardım "Anonim Alkoqoliklər" (Alcoholics Anonymous) təşkilatı həm alkoqoldan qurtulmada, həm də alkoqola qayıtma mübarizəsində insanlara yardım etməkdədir.

**3. Psixoterapiya** (ruhi müalicə)nin də müalicə edici xarakterdə olduğu son zamanlarda sübut edilib.

Spirtli içkidən istifadənin əndazədən çıxmağa başladığını göstərən əlamətlər: istifadə edilən spirtli içki miqdarı bəzən lazımi ölçüdə kimi görünsə də, insanın həyatında problem yaratmağa başlaya bilər. Bu zaman alarm siqnallarına qulaq vermək lazımdır.

Alkoqoliklərdə emosional vəziyyətlə əlaqədar şikayətlər psixiatrik xəstəxanadakı xəstələrin şikayətlərinə bənzəyir. Əgər xəstəliklə psixoloji cəhətdən maraqlanılmazsa, pasiyent sağalmaz. Bu bir neçə şəkildə (qrup terapiyası və ya fərdi psixoterapiya) ilə reallaşa bilər. Bəzi alkoqoliklərdə depressiya kimi digər psixiatrik xəstəliklər də görülə bilər. Əgər problem həmçinin psixiatrik xəstəlikdirsə, alkoqolizm müalicəsi ilə yanaşı xüsusi bir müalicə də lazımlı olacaq.

Uzunmüddətli müalicə proqramında sakitləşdiricilər istifadə edilməməlidir. Bu dərmanlar da eynilə spirt kimi asılılıq yaradır, yalnız məhrumluq əlamətlərinin korreksiyası zamanı istifadə edilə bilər.

Terapiya, bu gün yaşanılanlar, keçmişlə əlaqədar günahkarlıq duyğuları və gələcək qorxularıyla üzləşməsi üzərində qurulur. Buna görə də pasiyentin bu müddət ərzində təmkinli olması içki qəbulunun aradan qaldırılması qədər əhəmiyyətlidir. Bir çox alkoqolik üçün spirt qəbulu güclülük və azadlıq kimi proyeksiyalara səbəb olur. Spirtin təsiri altındaykən, özlərini bütün sosial təzyiqlərdən xilas olmuş kimi hiss edirlər. Inciklik və hirs səbəbi ilə də tükəndiklərini hiss edirlər.

Alkoqolizm sosial münasibətlərin pozulmasına səbəb olur. Ailə əlaqələrin pozulmağa başladığı ilk yerlərdən biridir, digəri isə iş yeridir. Amerikan Milli Alkoqolizm Şurası, özü və ya ailəsində spirt və ya narkotik asılılığı olan hər 20 adamdan birində bunun iş qabiliyyətinə təsir etdiyini müəyyənləşdirmişdir. Müalicədə yalan, inkar və səmimiyyətsizlikdən imtina edərək, özünü anlama və şəxsiyyətin inkişaf etdirilməsini əsas götürəcək sağlam və etibarlı əlaqələr yaratmağı öyrənmə üzərində diqqətlə qurulmalıdır.

İçki içməyə aludə olan fərdlərin içkidən əvvəlki sağlamlıq bacarıqlarını əldə etməsi, içki üzərindən toplumda itirdiyi rolunu və nüfuzunu qaytarması üçün hər cür müalicə üsullarından istifadə olunmaqdadır.

### Müalicənin əsas üsullarından biri -içkiyə nifrət aşılamaq

Müalicədə məqsəd içkinin tam buraxılmasıdır.Müalicənin istənilən nəticəni verməsi üçün xəstə bunu istəməli,müalicə başlayandan etibarən içki içməməlidir.

Antebus müalicəsi, xəstəyə antebus və ya bəzi dərmanlar verilməklə onda keçici böhran əmələ gəlməsinə, təzyiqin düşməsinə, tərləmələrə, istiliyin artmasına, vücudun bəzi hissələrinin qızarmasına və ürək döyüntüsünün güclənməsinə səbəb olunur. Bu zaman klinik ölüm halı sınaqdan çıxarılır.İçki qəbul emə istəyi keçənə qədər bu proses davam etdirilə bilər.

Nifrət hissi oyatma: Xəstəyə bəzi dərmanlar verilməklə ürək bulanmasına, içki verilməklə qusmasina və alkoqola qarşı nifrət hissinin oyandırılmasına çalışılır.

Psixoloji müalicə: alkoqolik içkinin zərərləri ilə bağlı məlumatlandırılır. Bəlalardan qurtarmağın yolunun içməməyə bağlı olduğu fikri formalaşdırılmağa çalışılır.

Bu müalicə üsullarından başqa, hipnoz və sosio müalicələrdən də istifadə edilir. İçkini atmaq hər bir müalicə üsulu ilə yanaşı, insanın öz əzmi və iradəsi ilə həll olunan bir məsələdir.

❑ **Sevìnc TELMANQIZI,**
**"Yenì Müsavat"**

# Qoz-fındıq ləpəsindən gələn təhlükə



## Azərbaycanda bazarlarda satılan qoz-fındığın tərkibində qaraciyər serrozu yaradan toksik maddə var

**Novruz bayramı ərəfəsində əhali bayram süfrəsi və şirniyyatlar üçün qoz, fındıq, badam almaq üçün bazarlara üz tutur. Qız-fındıq, ləpənin qiyməti cibimizə uyğun olmasa da Novruza xatir bu ərzaqlardan az da olsa almağa çalışırıq.**

Bakupost.az saytı xəbər verir ki, Azərbaycanda satılan qız-fındıqla bağlı əhali arasında müxtəlif məlumatlar yayılıb. İddialara görə, qoz və fındıqdan daha çox gəlir götürmək üçün istehsalçılar uzun illərdir ki, bir üsula əl atırlar. Belə ki, qız-fındığı yığandan sonra satışa verməzdən əvvəl uzun müddət nəm yerdə saxlayır, qurutmur, düzgün şəraitdə saxlamırlar. Nəticədə nəm ləpə çəkidə daha ağır gəlir və alıcını aldatmaqla bir kq qoz-fındıqdan daha çox gəlir əldə olunur.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bu faktı bakupost-a təsdiqləyib. Bildirib ki, 4 il əvvəl məhz bu səbəbdən Avropa tonlarla Azərbaycan qozunu geri qaytarıb:** "Çox təəssüf ki, bu məlumat doğrudur. Bizim sahibkarlar çox qazansınlar deyə milləti düşünmür. Yadımdadır, 4 il bundan əvvəl tonlarla Azərbaycan qoz-fındığını Avropaya buraxmadılar. Səbəb tərkibinin zərərli olması idi. Qoz-fındığımızın tərkibində aflotoksin adlı maddə çox idi. Aflotoksin çox zərərli göbələk növüdür".

**E.Hüseynov maraqlı bir məqama da diqqət çəkib:** "Sual edirəm ki, Avropanın qəbul etməyib geri qaytardığı o qoz-fındıq necə oldu? Təbii ki, burada əhaliyə satıldı. Aflotoksin göbələyi ilə zəhərli qoz-fındıq və çərəzlər günü bu gün də bazarlardadır. Novruz bayramı ərəfəsində satışa çıxarılan bu qoz-fındığı yoxlayan qurum yoxdur. Azad bazar iqtisadiyyatıdır, istər kəndlisi, istər sahibkarı malını istədiyi kimi satır. Bazarlarda laborarotiya yoxdur".

**"Bəs şirniyyatları bişirərkən və yeyərkən bu zərərli maddədən necə qorunmaq olar" sualına mütəxxəsis belə cavab verib:** "Düşünürəm ki, qabıqlı qoz-fındıq və ləpəni alandan sonra qurutmaq artıq bir fayda verməz. Məsləhətlisi odur ki, ləpəni şirniyyatlarda istifadə etməzdən əvvəl yüksək temperaturda qovursunlar və qovrulmuş halda da yesinlər".

**"Azərbaycan Tibb" jurnalının baş redaktor müavini Fuad İslamzadə isə medicina.az-a açıqlamasında nəm şəraitdə saxlanılan qız-fındığın sağlamlıq üçün təhlükəli olduğunu deyib:** "Düzgün qurudulmayan qoz-fındıq, araxisin tərkibində qaraciyər üçün zərərli, serroz, fibroz, qaraciyər xərçənginin yaranmasına səbəb olan aflotoksin adlı maddə yaranır. Bu maddə çox olduqda qız-fındığın dadı dəyişir, içərisində sarı rəngdə kif əmələ gəlir. Aflotoksinlər Avropadan üzü bəri, Şərqə doğru və Cənubi Qafqazda daha çox yayılıb. Bu ölkələrin əhalisinin qidasında qoz-fındıq daha çoxdur. Qoz-fındıqda təbiətən belə maddə olmur. Bu maddə məhz saxlanma şəraiti düzgün olmadıqda yaranır, yəni birbaşa insan müdaxiləsinin nəticəsidir. Ona görə qoz-fındıq alarkən ehtiyatlı olmaq lazımdır. Düzdür, bazarlarda ən tərifli qoza belə güvən yoxdur. Qoz-fındıq satanlar öz qazancına xatir insanlarımızın səhhətinə böyük zərbə vurur".

# Qadın qızının xəstəliyi ilə həkimi şantaj edib-təfərrüat



## Tanınmış hüquqşünasın oğlu atasının qazda boğulmasından danışdı

### "Hava küləkli olduğundan binanın suisidici ilə əlaqəli havalandırmasından külək geri daxil olub və seksiyaların hamısında tam yanma baş verməyib"

**Martın 2-də tanınmış hüquqşünas və jurnalist, "Femida-007" qəzetinin baş redaktoru Əyyub Kərimovun öz evində dəm qazından boğularaq ölüb. Bədbəxt hadisə paytaxtın Nərimanov rayonunda yaşanıb.**

Bununla bağlı Bakı Şəhər Prokurorluğu məlumat yayıb. Bildirilib ki, martın 2-də saat 14 radələrində 1958-ci il təvəllüdlü, Nərimanov rayonu, M.Əlizadə küçəsi, ev 132-də qeydiyyatda olan Kərimov Əyyub Zakir oğlunun yaşadığı mənzilin hamam otağında ailə üzvləri tərəfindən kəskin qaz iyi hiss olunmaqla meyitinin aşkar olunması barədə rayon prokurorluğuna məlumat daxil olub.

Həmin məlumat əsasında rayon prokurorluğunun əməkdaşları dərhal həmin ünvana gedərək məhkəmə-tibb ekspertinin, Bakı Regional Qaz İstismar Departamentinin Nərimanov texniki istismar xidmətinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib. Müayinə zamanı meyitin bədən səthində hər hansı xəsarət aşkar edilməyib. Meyitin aşkar olunduğu şərait onun dəm qazından boğulmasına əsaslı şübhələr yaratdığından meyit daxili müayinə olunaraq ölümün səbəblərinin müəyyən edilməsi üçün Məhkəmə-Tibb Ekspertizası və Pataloji Anatomiya Birliyinin Nərimanov rayon şöbəsinə göndərilib. Daxili müayinə zamanı müəyyən edilib ki, Ə.Kərimovun ölümünə səbəb "dəm qazı ilə zəhərlənmə" olub.

Faktla bağlı Nərimanov Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, istintaq aparılır.

**Modern.az saytı mərhum jurnalistin oğlu Zakir Kərimovla həmsöhbət olub. O, hadisənin təfərrüatlarından söz açıb:**

"Atam hər gün işə getməzdən qabaq duş qəbul edirdi. Həmin gün duş qəbul edən zaman hava küləkli olduğundan binanın suisidici ilə əlaqəli havalandırmasından külək geri daxil olub və seksiyaların hamısında tam yanma baş verməyib. Bu səbəbdən dəm qazı birbaşa içəri dolub. Qapı da bağlı olduğundan qazın çölə axını mümkün olmayıb. Atam evdə tək, anam və bacım isə işdə idilər. Təxminən günorta saatlarında əvvəlcə anam, sonra bacım evə gəlib. Hamamdan su səsi gəlsə də, qapını döyərkən heç bir səs eşitməyiblər. Buna görə də onlar qapını sındırıb içəri daxil olublar".

**Z.Kərimovun sözlərinə görə, Əyyub Kərimovu hamamda tapan ailə üzvləri dərhal təcili tibbi yardım çağırıblar:** "Təcili tibbi yardımın həkimləri baxış keçirəndən sonra polisə xəbər vermək lazım olduğunu bildirib. Prokurorluq hadisə yerinin şəklini çəkib, lakin atamın cəsədini yerindən tərpətməyiblər. Bundan sonra cəsədi ekspertizaya aparıblar, orada bədənə baxış keçirilib və yarılıb. Nəticə olaraq ekspertiza "dəm qazından boğulma" diaqnozu qoyub".

**Hadisə baş verən zaman müsahibimiz hərbi xidmətdə olub:**

"Bədbəxt hadisə baş verəndə mən Bakıda deyildim. Sonradan xəbər verildiyi üçün gəlmişəm. Hazırda istintaqın davam edib-etməməsi ilə bağlı dəqiq məlumatım yoxdur. Çünki indi rayondayıq. Atam Qaxda ata-anasının yanında dəfn olunub. Ayın 10-u Bakıda saat 11-dən axşam saat 5-ə qədər "Gənclik"dəki "Tural" mərasim zalında yas mərasimi keçiriləcək".

## "Reket"çilikdə ittiham edilərək DTX tərəfindən həbs edilən şəxslərin məhkəməsi davam edir

**"Reket"çilikdə ittiham edilərək DTX tərəfindən həbs edilən şəxslərin məhkəməsi keçirilib. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində "Bizim dövr" qəzetinin baş redaktoru Surxay Əliyev, onu müavini Hikmət Nəcəfli, "İlk xəbər" saytının baş redaktoru Gülbəniz Əliyeva, işçiləri İlahə Qasımova, Sevinc Məmmədsalayeva və "Kriminal 107" qəzetinin baş redaktoru Maarif Abbasovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**



Hakim Mahmud Ağalarovun sədrliyi ilə keçirilən prosesdə zərərçəkmiş Mustafa Muradov ifadə verib.

O, Mingəçevir Telekommunikasiya Qovşağının rəisi olub.

**M.Muradov deyib ki, bir dəfə Surxay Əliyevi görüb:** "Yanıma o qədər jurnalistlər gəlib-gedib ki, kimə pul verdiyim yadımda deyil. Tez-tez jurnalistlər gəlib deyirdilər ki, maşınımız xarab olub, cəbhə bölgəsinə gedirik, qəzet çıxarırıq-filan, hər dəfə kömək istəyirdilər. Bir ara internetdə şantaj xarakterli yazılar gedirdi. Surxay da zəng edib dedi ki, sizin də Rabitə Nazirliyinin həbs edilən vəzifəli şəxsləri ilə əlaqəniz olub. Mən ona yalvar-yaxar edib dedim ki, onları tanıyıram, amma bu işdə əlaqəm olmayıb. Surxay dedi ki, sənin haqqında yazılar hazırdı, yayacağıq. Əvvəl 5 min manat istədi, xahiş-minnətlə Hikmətlə 600 manata razılaşdıq. Yevlax postunda pulu Surxaya verdim".

Zərərçəkmiş indi şikayətçi olmadığını deyib.

**Məhkəmədə şahid Gülsarə Xəlilova da dindirilib. O, həkimlərdən birinin şantaj edilməsi epizodu üzrə ifadə verib.**

**O bildirib ki, qızı xəstə olduğu üçün Həzrət adlı həkimə müraciət edib:** "Xəstəxanalara müraciət etdim. Həkimlər hamısı pul istədilər. Əməliyyat olunmalı idi. İmkanın yox idi. Sonra getdim nəşriyyata. Orda polislər mənə məsləhət bildirlər ki, Maarif Abbasovla görüşüm. Maarif müəllimlə görüşdük. Dərdimi dedim, qızımın yazılı şəkildə sözlərini qeyd elədi. Həkimlərin yanına getdik. Orda pul söhbəti olmadı, Maarif heç kimdən pul istəmədi. Əksinə, mən istədim, qızımı əməliyyat etdirim".

Prosesin davamında prokurorun suallarına cavab verən şahidin istintaqa verdiyi ifadəsi ilə məhkəmədə verdiyi ifadəsi arasında ziddiyyət ortaya çıxıb.

Məhkəmədə Gülsarə Xəlilovanın istintaqa verdiyi ifadəsi elan edilib.

**Həmin ifadədə qeyd edib ki, Maarif Abbasov onu "Kriminal 107" qəzetində müxbir kimi işə götürüb:** "Bir çox yerləri şantaj edərək hədə-qorxu ilə pullar alacaqdıq. Mən də razılaşmışdım. Bir neçə aydan sonra qızım xəstələndi. Xəstəxanalara getdik. Həzrət Abbasov adlı həkimin yanına getdik. Əməliyyat olunmalı idi. Həkim məndən əməliyyat üçün 1000 manat istədi. Mən həkimin səsini yazıb, Maarif müəllim verdim. O da səs yazısını yazaraq həkimi şantaj etməyə başladı. Orada mənə Maarif dedi ki, pul alsa, mənə də maddi köməklik edəcək. Daha sonda qəzetlərdə "Sabunçuda şok rüşvət" adlı yazılar çap edildi. Həzrət həkimin xəstələrdən pul aldığı qeyd edilmişdi. Daha sonra pulun alıb-alınmasından xəbərim olmayıb. Mən səsi sonradan sildim".

Hakim bildirib ki, şahid haqqında yalan ifadə verdiyi üçün qərar çıxarılacaq.

İttihamda yazılır ki, S.Əliyev 47, H.Nəcəfli 46 epizodda ittiham edilir.

Surxay Əliyevin epizodu üzrə 66 min manat, H.Nəcəflinin epizodu üzrə 78 min manat, İ.Abbasovanın 7300 manat, M.Abbasovun 7500 manat, S.Məmmədsalayevanın 20 min manat, G.Əliyevanın epizodu üzrə 3900 manat ziyan dəydiyi bildirilib.

Surxay Əliyev və M. Abbasov özlərini təqsirli bilmədiklərini deyiblər. H.Nəcəfli, S. Məmmədsalayeva, İ.Abbasova qismən təqsirli bildiklərini söyləyiblər.

**İ.MURADOV**
**Musavat.com**

## Leyla Şıxlinskayanın klinikası ilə bağlı məhkəmədə şahidlər dindirilib

**Leyla Şıxlinskayanın rəhbərlik etdiyi klinikanın işçiləri növbəti dəfə hakim qarşısına çıxarılıb. Onlar külli miqdarda vergidən yayınmaqda ittiham edilirlər. Musavat.com xəbər verir ki, təqsirləndirilən şəxslərin cinayət işi üzrə məhkəmə iclası Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə baş tutub.**

Məhkəmə prosesində şahidlər ifadə verib. Şahid Yaqub Əliosmanov deyib ki, təqsirləndirilən şəxsləri tanımır.

O, 2012-ci ildə uşağını "Leyla Şıxlinskaya" klinikasında əməliyyat etdirdiyini söyləyib: "Deyəsən, ödənişi 500 manata yaxın etdim. Müddət keçdiyi üçün elə də yadımda deyil".

Maqsim Qafanov da şahid qismində ifadə verib. O, dindirilən zaman bildirib ki, qızı həmin klinikada əməliyyat olunub: "Amma ödəniş yadımda qalmayıb".

Daha sonra şahid Zaur Əsgərov ifadə verib. Söyləyib ki, "Leyla Şıxlinskaya" klinikasında həyat yoldaşı ilə bağlı qeysəriyyə əməliyyatı keçirilib, ora isə 1500 manat pul ödəyib.

Qeyd edək ki, təqsirləndirilən şəxslər arasında klinikanın baş mühasibi olmuş Şəhla Abbasova, Polad Əliyev, Səkinə Qasımova, Aytən Hüseynova, Mədinə Hüsüyeva, Yelena Abdullayevadır.

Onların hər biri barəsində polis nəzarətinə verilmə qətimkan tədbiri seçilib. Təqsirləndirilən şəxslər Leyla Şıxlinskayanı, klinikanın təsisçisi isə keçmiş işçilərini ittiham edir.

Klinikanın fəaliyyəti ilə əlaqədar açılan cinayət işi ilə bağlı məlum olan budur ki, adıçəkilən şəxslərin əməlləri barədə əvvəlcə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsində cinayət işi başlanıb. İstintaq davam etdirilməsi üçün Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilmişdi.

Bu ittihamı da Leyla Şıxlinskayanın rəhbərlik etdiyi klinikanın yeddi əməkdaşına qarşı irəli sürmüşdü.

Qeyd edək ki, təqsirləndirilən şəxslər Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə; külli miqdarda törədildikdə) və 213-cü (vergidən yayınma) maddələri ilə ittiham edilirlər.

**İ.MURADOV**
**Musavat.com**



## "Ən fəal işəgötürən şirkət" mükafatına "Nar" layiq görüldü




**2 mart 2018-ci il tarixdə ADA universitetində təşkil olunan karyera sərgisində "Nar" operatoru "Ən aktiv işəgötürən şirkət" mükafatına layiq görüldü. Sərgi çərçivəsində mobil operatorun iş imkanları və tələbə proqramları ziyarətçilərin böyük marağına səbəb oldu. Keçirilən karyera sərgisində 105 yerli və xarici şirkət iştirak etdi. "Azerfon" MMC-nin baş icraçı direktoru Qunnar Panke sərgidə aktivliyi ilə seçilən "Nar"-ın bu mükafata layiq görülməsindən məmnunluğunu dilə gətirdi: "Yerli bir şirkət olaraq "Nar" hər zaman azərbaycanlı gənclər üçün iş imkanları yaradır. Biz gənc istedadlardan dünya səviyyəli mütəxəssislər yetişdirməyə çalışırıq, onların parlaq karyera qurmalarına dəstək oluruq. Bu gün ən aktiv işəgötürən olaraq ADA universiteti tərəfindən mükafata layiq görüldüyümüz üçün fərəh hissi keçiririk. "Nar"-a göstərilən marağa görə bütün sərgi iştirakçılarına təşəkkürümü bildirirəm".**

**Qeyd edək ki, ADA universitetində keçirilən sərgini ümumilikdə 800-dən çox tələbə ziyarət edib. Birbaşa şirkət təmsilçiləri ilə ünsiyyətdə olan tələbələr müxtəlif şirkətlərdə karyera imkanlarını dəyərləndirmək, həmçinin bu şirkətlərin təcrübə proqramlarında iştirak barədə məlumat əldə etmək imkanı qazanıblar.**

**"Azerfon" MMC ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini istifadəyə vermişdir. Mobil operator səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim etmişdir. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

**Sumqayıtda binanın zirzəmisində yaşayan 6 nəfərlik ailənin bütün üzvlərinin dəm qazından ölməsi mətbuatda bir neçə istiqamətdə müzakirə olunur. Əsas narahatlıq doğuran dəm qazı problemi olsa da, körpə uşaqlı, böyük bir ailənin zirzəmidə yaşaması da başqa bir mövzudur. Məlumata görə, Bakıda və Sumqayıtda binaların zirzəmisində yaşayışın olması halları çoxdur. Səbəb isə aztəminatlı ailələrin mənzil almaqda çətinlik çəkməsidir.**



# Aztəminatlı əhalinin mənzil problemi

## Sosial evlər layihəsi də çarə ola bilmədi;

## **Ekspert:** "Elə etmək lazımdır ki, məmurlar bu cür layihələrdən öz mənfəətləri üçün istifadə etməsinlər"



Ramil Osmanlı

Ölkədə orta aylıq əmək haqqına sahib olan şəxslər belə bəzən ömrünün sonuna kimi çalışsa da mənzil əldə edə bilmir. Belə olan halda, kirayə qalmaq imkanları da məhdud olduqda məcburən yaşayış üçün uyğun olmayan yerlərdə, zirzəmilərdə məskunlaşırlar. Dövlət aztəminatlı ailələrin mənzil probleminin həlli üçün bir neçə istiqamətdə layihələr həyata keçirib ki, bunlardan ən çox ümid bəslənilən sosial mənzillər idi. Lakin bu layihənin də şərtləri elə müəyyənləşdirildi ki, sosial mahiyyəti özünü doğrulda bilmədi. Sosial mənzillərin güzəştli şərtlərlə verilməsi üçün elə kateqoriya insanlar nəzərdə tutulub ki, sadə bir aztəminatlı Azərbaycan vətəndaşının onu əldə etmək imkanı yoxdur.

Mənzilləri güzəştlə əldə etmək hüququ olan ailələr əsasən şəhid ailəsinin üzvü olmalı, Milli Qəhrəman və ya məcburi köçkün və ya ona bərabər tutulan şəxs olmalıdır. Ən azı 3 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxslər, ən azı 5 il dövlət ümumtəhsil məktəbində müəllim işləyən şəxs, fəlsəfə doktoru elmi dərəcəsi olan şəxs, idman sahəsində xüsusi xidmətləri olan şəxs, elmlər doktoru elmi dərəcəsi olan şəxs, ən azı 15 il dövlət qulluğunda qulluq edən şəxs, ən azı 3 il daxili işlər orqanlarında xidmət keçən xüsusi rütbəsi olan şəxslər də mənzilləri güzəştlə əldə etmək hüququna malikdirlər. Göründüyü kimi, bu şərtlərdə nəzərdə tutulan sosial qrupların bir qismi dövlətin həyata keçirdiyi başqa layihələr çərçivəsində də mənzillə təmin olunublar. Söhbət şəhid ailələri, qaçqın və məcburi köçkünlərdən, həmçinin hərbi qulluqçulardan gedir. Bundan başqa elmlər doktoru və ya 15 illik staji olan dövlət qulluqçusu da aztəminatlı təbəqədən sayıla bilməz.

Güzəştli mənzillərin bu kateqoriya insanlara verilməsi, əhalinin böyük bir hissəsinin sosial evlərdən də məhrum olmasına gətirib çıxarır. İpoteka kreditlərinə gəlincə, nəinki aztəminatlı, orta səviyyəli ailələrin belə ipoteka ilə mənzil əldə etməsi mümkün deyil.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan mənzil eksperti Ramil Osmanlı bildirdi ki, bir çox hallarda hökumətin həyata keçirdiyi tədbirlər də son məqsədə çata bilmir, kimlərsə onu şəxsi maraqlarının təmin olunmasına yönəldir:** "Azərbaycan hökumətinin əhalinin mənzil təminatının yaxşılaşdırılması istiqamətində atdığı addımlar, qəbul etdiyi qərarlar, həyata keçirdiyi proqramlar bazar iqtisadiyyatında formalaşmış bir ölkə üçün kifayət qədər mütərəqqi addımlardır. Biz bir çox xarici ölkələrin təcrübəsinə baxsaq bu cür sosial layihələr demək olar ki, çox azsaylı ölkələrdə var. Sadəcə, bu sosial layihələrin icrası zamanı xüsusilə aztəminatlı ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq icra hakimiyyəti orqanlarının onlara verilmiş səlahiyyətlərdən qanunamüvafiq formada istifadə etməməsi bu cür hallara gətirib çıxarır. Biz zaman-zaman rast gəlirik ki, ayrı-ayrı dövlət qurumlarında bu cür sosial layihələrin icrası zamanı müəyyən subyektiv səbəblərdən hansısa imkanlı ailəyə, evi olana mənzil verilir, ancaq ehtiyacı olan kənarda qalır. Bu cür problemləri aradan qaldırmaq, neqativ hallara qarşı ciddi mübarizə aparmaq lazımdır. Elə etmək lazımdır ki, məmurlar bu cür layihələrdən öz mənfəətləri üçün istifadə etməsinlər. Nəticədə dövlətin imicinə bu cür xələl gəlməsin. Bəzi hallarda bu ailələrin özlərində də müəyyən səhlənkarlıq olur, müvafiq icra hakimiyyəti orqanlarına və ya ölkə rəhbərliyinə müraciət etmirlər. Ancaq biz dövlət bu gün Azərbaycanda mənzili olmayan bütün ailələri evlə təmin etməlidir deyə bir yanaşma ortaya qoya bilmərik. İndiki halda hökumətin imkanları da buna adekvat deyil".

**R.Osmanlı vurğuladı ki, sosial evlərlə bağlı şərtlər elə müəyyənləşdirilə bilərdi ki, əhalinin imkansız təbəqəsi də ondan yararlana bilsin:** "Sosial Mənzil Fondu müzakirə aparılan zaman da, qərarlar qəbul edilən zaman da mən öz fikrimi bildirdim. Mənim fikirlərim müvafiq icra hakimiyyəti orqanı rəhbərliyinin də xoşuna gəlməyib. Ancaq öz fikrimdə qalıram ki, Azərbaycanda Sosial Mənzil Fondu sosial layihə hesab oluna bilməz. Bu bir kommersiya layihəsidir. Bu əslində İpoteka Fondu ASC-nin əvvəllər gördüyü işin bir qədər başqa formada icrasıdır. Burada, sadəcə, fərq ondan ibarətdir ki, İpoteka Fondu girov təminatını həyata keçirirdi, Sosial Mənzil Fondu isə həm də layihənin icrası zamanı mənzillərin tikintisi ilə bağlı tenderi həyata keçirir, tikintiyə nəzarət, mənzillərin paylanmasında iştirak edir. Əslində isə bu bir kommersiya layihəsidir. Azərbaycan Mənzil Məcəlləsində "sosial kirayə" forması nəzərdə tutulub. Biz o zaman təklif edirdik ki, sosial satış forması nəzərdə tutulursa, buna oxşar bir layihə icra olunmalıdır. Bu zaman da belə nəticələr ortaya çıxır ki, bir hərbi qulluqçunun iki evi varsa, sadəcə, öz adına deyilsə, o, üçüncü evi də sosial mənzil olaraq alır. Azərbaycan vətəndaşı alman vətəndaşı təfəkküründə deyil. Ona görə də müvafiq icra hakimiyyəti orqanları bu cür layihələri həyata keçirərkən bu məsələləri nəzərə almalıdır. Ancaq çox zaman şəxsi mənfəət dövlətin ümumi maraqlarından öndə dayanır".

**Ekspertin fikrincə, təəssüf doğuran məqamlardan biri də odur ki, Azərbaycanda orta aylıq əmək haqqına sahib olan şəxsin ipoteka ilə mənzil əldə etmək imkanı da sıfıra bərabərdir:** "Azərbaycanda nəinki ipoteka kreditlərindən, hətta sosial mənzillərdən əldə etmək üçün minimum şərtlər ödənməsi üçün iki nəfərlik ailənin aylıq gəliri 650 manatdan yüksək olmalıdır. Ümumi ipotekaya gəldikdə isə bu rəqəm təxminən 950-1000 manat, bəzi hallarda daha yüksək olmalıdır. Burada ailə tərkibi və sair də nəzərə alınır. Ona görə də belə bir imkan faktiki olaraq yoxdur. Bu səbəbdən əhalinin böyük əksəriyyətini təşkil edən aşağı təbəqənin mənzil əldə etmək imkanı yoxdur. Ancaq sosial mənzil fondunun sosial kirayə forması tətbiq olunsaydı, bu, Mənzil Məcəlləsində nəzərdə tutulduğu kimi, kifayət qədər sosialyönümlü bir layihə olardı".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# Mənzillərdə isitməyə sərf olunan enerjinin həcmi 40-50% azaldılacaq

## BMT-nin İnkişaf Proqramı və SOCAR birgə layihə həyata keçirir

**Martın 6-da Bakıda BMT-nin İnkişaf Proqramı və SOCAR-ın birgə həyata keçirdiyi NAMA layihəsi çərçivəsində Azərbaycanda karbon emissiyalarının azaldılması istiqamətində təşkil olunan tədbirlərə həsr olunan konfrans keçirilib.**



Musavat.com-un məlumatına görə, konfrans hər iki qurumun birgə fəaliyyətinin nəticələri, görülən işlər və gələcək perspektivlərin müzakirəsinə həsr olunub, həmçinin BMT-nin İnkişaf Proqramının ARDNŞ-lə həyata keçirdiyi pilot fəaliyyətlərinin uğur nümunələrinin respublika miqyasında geniş tətbiq olunmasının vacibliyi vurğulanıb.

Qeyd edək ki, konfrans öncəsi BMT-nin İnkişaf Proqramı və Azərbaycan Dövlət Neft Şirkəti arasında Niyyət Məktubu imzalanıb. Niyyət Məktubunu imzalayan tərəflər ətraf mühitin qorunması sahəsində əməkdaşlığın davam etdirilməsinə dair qarşılıqlı razılıq əldə ediblər. İmzalanma mərasimində BMT-nin Rezident Əlaqələndiricisi və BMT-nin İnkişaf Proqramının Azərbaycanda Rezident Nümayəndəsi Qulam İsakzai və ARDNŞ prezidenti Rövnəq Abdullayev inkişafyönümlü fəaliyyətlərin səmərəliliyini artırmaq məqsədilə ortaq maraq doğuran sahələrdə, o cümlədən iqlim dəyişmələri, enerji səmərəliliyi, emissiyaların azaldılması və ümumən ətraf-mühitin qorunması və digər sahələrdə əməkdaşlıq etmək istəklərini ifadə edib.

"Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) yeni tikinti layihələrində tətbiq ediləcək kompleks bina layihələndirilməsi yanaşması mənzil sektorunda isitmə məqsədilə sərf olunan enerjinin həcminin 40-50% azalmasına şərait yaradacaq". Bu sözləri SOCAR-ın ekologiya üzrə vitse-prezidenti Rəfiqə Hüseynzadə bildirib. O, həmçinin qeyd edib ki, SOCAR-ın BMTİP ilə birgə həyata keçirdiyi "NAMA" layihəsi ölkəmizdə enerjiyə qənaət edən və karbon emissiyası aşağı olan texnologiyanı dəstəkləyir. Onun sözlərinə görə, bu layihə çərçivəsində artıq 6 külək turbini və 63 kvt gücündə günəş panelləri quraşdırılıb:

"İl ərzində 1000-ə yaxın işçiyə eko-sürücülük təlimləri keçirilməsi planlaşdırılıb. Həmçinin "Siyəzənneft" NQÇİ-nin Zağlı-Zeyvə yatağı ərazisində 63 qutuda səmt qazının yığılın emal edilərək əhaliyə verilməsi istiqamətində işlərə başlanılıb".

**BMT-nin Rezident Əlaqələndiricisinin müavini Alessandro Frakasetti isə qeyd edib ki, iqlim dəyişmələrinə qarşı tədbirlər, enerji səmərəliliyi və dayanıqlı inkişafın təmin edilməsi bu gün nəinki Azərbaycan, həm də bütün dünya üçün əhəmiyyət kəsb edən məsələlərdir:**

"Bu baxımdan SOCAR-ın ekoloji layihələri, o cümlədən 2010-cu ildən qüvvədə olan İqlim Dəyişmələrinə Təsirlərin Azaldılması Strategiyası böyük qlobal missiyanın tərkib hissəsidir".

Daha sonra layihənin gedişatı haqqında videoçarx izlənilib.

Qeyd edək ki, SOCAR NAMA layihəsini Qlobal Ekoloji Fond (GEF) və BMTİP ilə birgə olaraq, 3 istiqamət üzrə həyata keçirir: binalarda enerji səmərəliyinin artırılması, nəqliyyatda alternativ yanacağa keçid və neft quyularında səmt qazının yığılması. Layihə 2020-ci ildə yekunlaşacaq.

Xatırladaq ki, 2013-cü ildən başlayaraq, SOCAR hər il özünün birgə müəssisələrində və digər əməliyyatçı şirkətlərdə atmosferə atılan çirkləndirici qazların ümumi miqdarının hesablanmasını həyata keçirir. Beynəlxalq təşkilatlarla müştərək keçirilən proqramlardan əlavə olaraq, SOCAR Azərbaycanda ətraf mühitin qorunması istiqamətində hər il birbaşa öz imkanları ilə çirklənmiş torpaqların təmizlənməsi və yaşıllaşdırılması, tullantıların idarə olunması, ekosistemin bərpası və s. kimi zəruri tədbirləri həyata keçirir.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**
**Fotolar Elçin Əkbərindir**

Yeni MÜSAVAT

Son səhifə

N 53 (6942) 7 mart 2018



## Evin havalandırma boşluğunda keçmiş kirayənişinin cəsədi tapıldı

Amerikanın Texas ştatında kirayə tutduqları evin havalandırma boşluğunda cəsəd tapan yeni kirayənişinlər həyatlarının şokunu yaşayıb. 2015-ci ildə bir anda ortadan itən Mary Stevart Cerrutidən 3 il boyunca xəbər çıxmırdı. Ta ki, evə yeni köçən kirayənişinlər onun təkcə sümükləri qalmış cəsədini tapana qədər. Evin damında bir taxtanın üstünə çıxan 61 yaşlı qadın oradan yıxılıb və evin divar sahəsi arasındakı bir boşluqda ilişib. Təkbaşına düşdüyü yerdən çıxmağa nail ola bilməyən qadın havalandırma boşluğunda dünyasını dəyişib. Evdə tapılan sümüklər üzərində aparılan ədliyyə tibb testində skeletin keçmiş kirayənişinə məxsus olduğu üzə çıxdı. Yaşlı qadından geriyə çürümüş geyimlər, idman ayaqqabısı və bir cüt eynək qalmışdı. Yaşlı qadının ölümündən əvvəl də qapalı bir həyat tərzi keçirdiyi və evinin pəncərələrini divar kağızları ilə bağladığı öyrənildi. Evin divarları arasında bir insanın sığışa biləcəyi qədər boşluq olduğunu açıqlayan yetkililər eyni zamanda vurğulayıb ki, qadın öncə evin damına çıxıb, ardınca bu boşluğa düşüb və burada sıxışıb qalandan bir müddət sonra isə aclıq və susuzluqdan dünyasını dəyişib. Qadının ölüm səbəbinin tam olaraq üzə çıxmamasının səbəbi isə onun heyvanlar tərəfindən yeyilməsi olub. Sümüklərdə isə hər hansı bir zədə izi yoxdur.

# Hamiləliyindən xəbəri olmadan uşaq dünyaya gətirdi

İngiltərənin Cənubi Qlosterşir qraflığındakı Yet şəhərində yaşayan 41 yaşlı Amanda Ross dükana alış-veriş üçün gedərkən marketin qarşısında qəflətən onun qarnında kəskin ağrılar başlayıb. Bağırsaq və ya mədəsində küt ağrılar başladığından şübhələnən Ross ərinə zəng vurub. Onun əri, 53 yaşlı Pol Din də xanımını Bristoldakı "South Hospital"a aparıb. Müayinə zamanı bəlli olub ki, Amanda Rossun ağrılarına səbəb mədə və ya bağırsaqdakı fəsadlar yox, hamiləlikdir. 41 yaşlı Amandanın hamilə olduğu aşkarlanandan 15 saat sonra isə o, qeysəriyə yolu ilə doğub. 80 dəqiqə davam edən doğuş Pol və Amandaya qız bəxş edib. Valideynləri uşağa Xlo adını veriblər. "Müayinə zamanı həkimlər dedilər ki, hamiləliyin 7-ci, ya da 8-ci ayındayam. Onu da söylədilər ki, dərhal əməliyyat olunmalıyam, çünki hamiləliyim fəsadlı şəkildə başa çata bilər", - Amanda deyib. İlk nikahından iki övladı və iki nəvəsi olan Pol indi yenidən ata olmağına çox sevinir.



# Artıq çəkidən qurtulmaq istəyənlər çaxır içirmiş



**Amerika alimləri belə bir qənaətə gəliblər ki, çaxır qadınları artıq çəkidən qoruyur. Sən demə, çaxırda çox sayda kalori olmasına baxmayaraq, ondan ağılla içmək qadın fiqurasını gözəlləşdirir. Alimlər son 13 il ərzində çaxırın qadın metabolizminə təsirini öyrənməyə çalışıblar.**

Araşdırmalarda 19.220 amerikalı qadın iştirak edib. Çaxırdan ağılla istifadə edən qadınların çəkisi mineral su və hətta suya üstünlük verənlərdən fərqli olaraq gec artır. Alimlər hesab edir ki, alkoqolun tərkibində olan kalori digər maddələrdə olan kalorilərdən fərqli olaraq çəkiyə az təsir edir. Lakin bunun səbəbi hələlik aydınlaşdırılmayıb.

Belə bir ehtimal var: müntəzəm olaraq alkoqoldan istifadə edən insanın qaraciyəri maddələr mübadiləsi üçün əlavə fəallıq göstərir, artıq enerjini yağa yox, istiliyə çevirir.

13 il davam etmiş eksperiment gedişində araşdırmalarda iştirak etmiş qadınların 38 faizi içkiyə olan münasibətləri barədə danışıblar və öz çəkilərini qeyd ediblər. Eksperiment gedişində məlum olub ki, alkoqoldan qaçan qadınların çoxunun çəkisi artıb. Qadın fiqurasına daha yaxşı təsir edən isə qırmızı çaxır olub. Pivə və daha sərt içkilər çəkinin maksimum artmasına gətirib çıxarıb.

Lakin alimlər hesab edir ki, çaxırdan istifadə edərək ölçünü gözləmək lazımdır. İfrat dərəcədə aludəçilik təkcə çəkiyə deyil, həm də sağlamlığa ziyandır.




**QOÇ** - Özünüzdən böyüklərin və nə vaxtsa sizə yaxşılıq edənlərin üzünə ağ olmayın. Unutmayın ki, atalar "su gələn arxa bir də gələr" deyib. İkili düşüncələrdən xilas olmağa çalışın.

**BUĞA** - Potensial enerjinizin zəifləməsi fəaliyyətinizin passivləşməsinə rəvac verir. Buna baxmayaraq, bürcünüzə xas olmayan mistikaya meyl etməməlisiniz. Kənardan dəstək əldə etməyə çalışın.

**ƏKİZLƏR** - Köməyə böyük ehtiyacınız olduğunu görən Göy qübbəsi xidmətinizdə duracaq. Belə ki, nahardan sonra etibar etdiyiniz adamlardan dəstək alacaqsınız. Onları aramaqla məşğul olun.

**XƏRÇƏNG** - Ümumi gərginliyi nəzərə alıb gün ərzində ehtiyatlı taktikalardan istifadə etməlisiniz. Hər hansı mübahisə və hiyləgərlik müsbət nəticə verməyəcək. Riskli işlərdən uzaq olun.

**ŞİR** - Ulduzlar gün ərzində külli-ixtiyarı özünüzə verəcək. Bu səbəbdən də atdığınız addımlara, verdiyiniz qərarlara diqqət yetirməlisiniz. Nahardan sonra maraqlı hadisələrin şahidi olacaqsınız.

**QIZ** - Fəaliyyət göstərdiyiniz yerlərdə iş yoldaşlarınızla münasibətləri yaxşılaşdırın. Kiminsə yersiz atmacalarına əhəmiyyət verməyin. Saat 13-dən sonra daxili süstlüyünüz səngiyəcək.

**TƏRƏZİ** - Məhəbbət və nifrət! Gün ərzində bu iki amildən maksimum istifadə edəcəyiniz gözlənilir. Amma yaxşını kimə, pisi kimə yönəldəcəyinizi özünüz təyin edin. Səhhətinizə də fikir verin.

**ƏQRƏB** - Yeni işgüzar əlaqələrə başlamaq üçün uğurlu ərəfədir. Amma aldanma ehtimalınızın olacağını göz önünə gətirib ehtiyatı da əldən verməməlisiniz. İşdə məsuliyyətinizi hiss edin.

**OXATAN** - Maddi durumunuzu yaxşılaşdırmaq üçün geniş imkanlarınız var. Təxminən saat 12-dən etibarən bu yönümdə əzmkarlığınızı artırmalısınız. Bu gün başqalarının rəyini ciddi qəbul etməyin.

**OĞLAQ** - Səhhətiniz qaydasında olduğuna tam əminsinizsə, ən ciddi işlərin həllinə başlamağa dəyər. Saat 17-yə qədər böyük perspektivdən xəbər verən sövdələşmələrdə iştirakınız labüddür.

**SUTÖKƏN** - İxtiyarınızda olan bu təqvimdə əsasən emosiyalarınızı buxovlamalı, qeyri-ciddi işlərinizi təxirə salmalısınız. Ümumiyyətlə, ətrafda hər şeyin sabit olması üçün əzmkarlıq göstərməlisiniz.

**BALIQLAR** - Özünüzü aparıcı şəxs kimi təqdim etməyin. Yoxsa ətrafdakıların ikrahını qazana bilərsiniz. Hər halda, obyektiv fikirlərə də qiymət verməlisiniz. Riskli qərarlardan yayının.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Günorta yatmaq ölümə bərabər imiş



**"Gündüz yatanlarda vaxtsız ölüm riski daha çoxdur". Kembric Universitetinin tədqiqatçıları bu qənaətdədirlər. Onların apardıqları təcrübədə 16 min nəfər iştirak edib. Bu insanlardan gündüzlər yatmaq vərdişlərinin olub-olmaması barədə soruşulub. Sonra 13 il müddətində onları müşahidə edən alimlərin gəldiyi nəticə elə də xoş olmayıb.**

Məlum olub ki, 40-79 yaş arası, günortalar təxminən 1 saat yatan insanların ölüm riski 14% daha çoxdur. Gündüz yuxusunun müddəti artdıqca (1 saatdan çox) ölüm riski 32% artıb. Ölüm riski isə əsasən respirator xəstəliklərlə bağlı olub. Lakin günorta yatanların ölüm riskinin dəqiq hansı səbəbdən artması hələ bəlli deyil. Alimlər deyirlər ki, tədqiqat zamanı alimlər həyat sürəcinə təsir edən yaş, cins, çəki və s. amilləri nəzərə alıblar.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.